Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9
AVQUST
2019-cu il
№ 140 (4038)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# QARABAĞ MİTİNQİNDƏN SONRA SEPARATÇI REJİM ERMƏNİLƏRİ PAŞİNYANIN ÜSTÜNƏ DÜŞDÜ...

■ səh. 3 ■

Rusiya Mədəniyyət Nazirliyi Qarabağda erməni separatizmini dəstəkləyən filmi niyə maliyyələşdirir...
■ səh. 4 ■

Türkiyə-Rusiya ünsiyyətinin sınağa çəkildiyi daha bir səhnə - Zelenski Ərdoğanla Donbasdan danışdı...
■ səh. 8 ■

Qırğızıstanın sabiq prezidentinin iqamətgahında qanlı toqquşma... Xüsusi təyinatlılar Atambayevi yalnız ikinci əməliyyatda yaxalaya bildi
■ səh. 5 ■

Qızılın qiymətlərində sürətli artım başladı...
■ səh. 6 ■

Azərbaycan aqrar sektordan daha çox valyuta qazanmaq ərəfəsində...
■ səh. 7 ■

Azərbaycanın daxili marşrutlarında turistlər niyə sığorta olunmur...
■ səh. 13 ■

Bakının yol kənarı ağacları vaxtında budansa... neçə-neçə fəlakətdən qurtara bilərik
■ səh. 10 ■



■ səh. 9 ■

## Paşinyanın məsuliyyətsiz mitinq çıxışından sonra dünya mediası «Müharibə mövzusunu» önə çıxardı



**Qurban bayramının qurbanlıqları - daha uşaq bağçalarının yolunda da kəsməyin axı...**
■ səh. 10 ■

**Bəzi azərbaycanlı qızlarda inanılmaz «Adel» sindromu - 15-20 yaş özündən böyük kişilər...**
■ səh. 14 ■



**Masazır kəndi zibilin içində itib-batır, bələdiyyə hara baxır...**
■ səh. 11 ■

■ səh. 3 ■
Suriyanın şimalında Türkiyə-ABŞ alyansı - Rusiya-Türkiyə ünsiyyəti yeni sınaqda...



■ səh. 12 ■
2000 dünya universitetinin sırasına düşən bir universitetimiz olmadı...



■ səh. 13 ■
Mərkəzi Bankın gəlirlərində maraqlı kökləri olan 100 milyon manat...



■ səh. 11 ■
Yol qəzalarının və qəza qurbanlarının sayında yenidən artımlar görünməyə başlayıb



■ səh. 15 ■
Kənd yerlərində maraqlı fenomen - nikahdankənar doğulan uşaqların sayı artır



# Azərbaycan Bolqarıstana etiraz notası verdi



**Bolqarıstan parlamentinin üzvləri Valeri Simeonov və Yordan Apostolovun bu ilin 6-7 avqust tarixlərində ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfəri və burada qondarma separatçı rejimin "nümayəndələri" ilə keçirdikləri görüşlərlə bağlı Azərbaycanın Bolqarıstandakı səfirliyi tərəfindən etiraz notası Bolqarıstan Xarici İşlər Nazirliyində keçirilmiş görüş zamanı qarşı tərəfin diqqətinə çatdırılıb.**

Bu barədə "Trend"ə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Nazirlik qeyd edir ki, bu, ermənipərəst mövqeyi ilə tanınan deputat V.Simeonovun ölkəmizin işğal edilmiş ərazilərinə 3-cü qanunsuz səfəridir, onun adı 2016-cı ildə həyata keçirdiyi icazəsiz səfər nəticəsində "işğal edilmiş ərazilərimizə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşları" siyahısına daxil edilib:

**"Deputat Y.Apostolova gəldikdə isə, ölkəmizin işğal olunmuş ərazilərinə icazəsiz səfər edən digər xarici ölkə vətəndaşlarının halında olduğu kimi, onun da bu səfəri eyni hüquqi nəticələri doğuracaq".**

## Polşada futbol azarkeşləri arasında iğtişaş yaratmaq istəyən ermənilər saxlandı

**Polşanın Krakov şəhərində mütəşəkkil cinayətkar qruplaşmanın tərkibində fəaliyyət göstərməkdə ittiham edilən 26 Rusiya vətəndaşı saxlanıb.**




"Trend"in məlumatına görə, həmin şəxslərdən 22 nəfəri Polşada qanunsuz yaşayan erməni və çeçen əsillidir. Qeyd olunur ki, bu həftənin əvvəlində Krakovda ticarət mərkəzinin önündə saxlanana həmin şəxslər futbol azarkeşləri arasında iğtişaş yaratmağı planlaşdırırmış. Saxlananların avtomobillərində narkotik vasitələr və silah-sursat da aşkar edilib.

## Azərbaycanda itkin düşən uşaqların sayı nədən artıb?

**Azərbaycanda axtarışda olan cinayətkarların, eləcə də itkin düşən uşaqların sayı artıb. "Trend"in məlumatına görə, 2010-cu ildə Azərbaycanda 3663, 2015-ci ildə 3932, 2016-cı ildə 4463, 2017-ci ildə 5038, 2018-ci ildə isə 5375 cinayətkar axtarışda olub.**



Ötən il axtarışda olan cinayətkarların 52-si 14-17 yaşlı uşaq olub. 2017-ci ildə isə belə uşaqların sayı 47-dir. Ötən il axtarışda olanların 1420-si (2017-ci ildə1603) dələduzluq, 888-I (2017-ci ildə 718) oğurluq, 139-u hərbi xidmət əleyhinə, onlardan 61-i fərarilik (2017-ci ildə 147-si hərbi xidmət əleyhinə, onlardan 62-si fərarilik), 52-si dövlət hakimiyyəti əleyhinə (2017-ci ildə 34), 41-i banditizm (2017-ci ildə 42), 123-ü qəsdən adam öldürmə və adam öldürməyə cəhd (2017-ci ildə 103) və s. ilə bağlı cinayət törədib.

2000-ci illə müqayisədə ölkədə itkin düşən uşaqların sayı azalsa da, ötən il onların sayı 2017-ci illə müqayisədə artıb. 2018-ci il ərzində Azərbaycanda 964 (2017-ci ildə 914 nəfər) nəfər itkin düşüb ki, onların 136-sı 18 yaşadək uşaq olub. 2017-ci ildə itkin düşən uşaqların sayı 105, 2016-cı ildə 129, 2015-ci ildə 116, 2010-cu ildə isə 137 olub.

Qeyd edək ki, 2000 və 2005-ci illərdə Azərbaycanda itkin düşən uşaqların sayı daha çox olub. 2000-ci ildə 261, 2005-ci ildə 293 uşaq itkin düşüb.

# Kassa çeklərinin təqdim edilməməsi ciddi maliyyə sanksiyalarına səbəb olacaq

## *Vergilər Nazirliyi xəbərdarlıq etdi*

**Paytaxtın və bölgələrin bir çox ticarət, ictimai iaşə və xidmət obyektlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən dövriyyənin gizlədilməsi məqsədilə kassa aparatlarından istifadə edilməməsi, vurulmuş kassa çeklərinin alıcılara verilməməsi istehlakçılarda ciddi narazılıqlar doğurur.**




Vergilər Nazirliyindən "Trend"ə verilən məlumata görə, bu cür hallarla rastlaşan vətəndaşların nazirliyə müraciətlərinin sayı gündən-günə artır. Cari ilin əvvəlindən vergi ödəyiciləri üçün güzəştlərin və azadolmaların tətbiq edildiyi, sahibkarlıq obyektlərinin fəaliyyətinin stimullaşdırılması üçün geniş imkanlar yaradıldığı bir şəraitdə onların büdcə vəsaitlərinin formalaşmasında iştirakı da şəffaf olmalıdır.

Xəbər verildiyi kimi, Vergilər Nazirliyi ticarət və iaşə obyektlərində nəzarət-kassa aparatlarından istifadə zamanı kassa çeklərinin təqdim olunması istiqamətində monitorinq və nəzarət tədbirlərini gücləndirib. Nazirlik tərəfindən aparılan monitorinqin nəticələri göstərir ki, kassa çeklərinin təqdim edilməsi vəziyyəti qənaətbəxş deyil, bir çox sahibkarlar bu sahədə qanunların tələblərinə və nağd hesablaşmaların aparılması qaydalarına əməl etmirlər.

Bakı şəhərində yerləşən ayrı-ayrı ticarət və ictimai iaşə obyektlərində kassa çeklərinin təqdim edilməsi vəziyyətinin yoxlanılması ilə bağlı aparılan monitorinq zamanı vergi nəzarəti ilə əhatə olunmuş obyektlərin 97 faizində nəzarət-kassa aparatlarından istifadə ilə bağlı qanun pozuntusu halları aşkarlanıb. Yoxlamalar nəticəsində 194 obyektdəki kassa aparatlarından istifadə zamanı kassa çeklərinin təqdim olunmadığı, 320 nəfərin əmək müqaviləsiz işlərin və xidmətlərin yerinə yetirilməsinə cəlb edildiyi müəyyən olunub.

Monitorinq zamanı qanun pozuntusu halı ilk dəfə aşkar olunduğundan, Vergilər Nazirliyinin əməkdaşları bu obyektlərə qarşı hər hansı maliyyə sanksiyası tətbiq etməyiblər, vergi ödəyicilərini kassa çeki təqdim olunmasının vacibliyi və bu tələblərin pozulması ilə bağlı məsuliyyət tədbirləri haqqında məlumatlandırıblar. Diqqətə çatdırılıb ki, sanksiyanın tətbiq edilməməsi onlarda arxayınlıq yaratmamalıdır: çünki rəsmi xəbərdarlıq edilmiş sahibkarlar risk qrupuna aid ediliblər. Bu da həmin vergi ödəyicilərinin fəaliyyət göstərdikləri təsərrüfat subyektlərində vergi nəzarəti tədbirlərinin təkrar keçirilməsi ilə nəticələnəcəkdir.

Vergilər Nazirliyi istehlakçıların da nəzərinə çatdırır ki, onlar istər alış-veriş zamanı, istərsə də ictimai iaşə obyektlərinin xidmətlərindən istifadə edərkən kassa çekini tələb etməlidirlər. Bu, ilk növbədə, onların hüquqlarının pozulduğu hallarda öz mənafelərinin qorunması üçün vacibdir. Hər bir vətəndaş bilməlidir ki, alış-veriş zamanı kassa çekini tələb etməklə alışların rəsmiləşdirilməsində və bununla da vergilərin ödənilməsində dolayı şəkildə iştirak edir. Vergi qanunvericiliyi nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə sərt məsuliyyət tədbirləri nəzərdə tutur.

Vergilər Nazirliyi tövsiyə edir ki, sahibkarlıq subyektləri nəzarət-kassa aparatlarından düzgün istifadə etməli, vurulmuş çekləri mütləq qaydada alıcılara təqdim etməlidirlər ki, böyük məbləğlərdə cərimələrlə, maliyyə sanksiyaları ilə üzləşməsinlər. Sahibkarın kassa aparatlarından istifadə etməməklə vergidən yayındırdığı məbləğ gələcəkdə onun maliyyə sanksiyaları şəklində itirəcəyi məbləğlərdən qat-qat azdır.

Nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə vergi ödəyicisinə:

təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1.000 manat məbləğində;

təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 3.000 manat məbləğində;

təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə isə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

# Qarabağ mitinqindən sonra separatçı rejim erməniləri Paşinyanın üstünə düşdü...

**Ermənistan Baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndidə etdiyi məlum çıxış bütün dünyanın diqqətini cəlb edib. Bununla Paşinyan öz ölkəsini çətin vəziyyətə salmış olub. Onun "Qarabağ Ermənistandır" deyə səsləndirdiyi fikir Ermənistanın işğalçılıq siyasətinin açıq etirafı sayılır.**



## *Elşən Həsənov: "Paşinyanın məsuliyyətsiz çıxışı həm də ona qarşı müxalif olanların əlinə güclü şans vermiş oldu"*

Çünki Azərbaycanın beynəlxalq hüquq və dünya ictimaiyyəti tərəfindən tanınan suveren ərazisi sayılan Dağlıq Qarabağın Ermənistana aid olduğunu bəyan etməsi, faktiki, İrəvanın işğalçılıq siyasətinin ifşası deməkdir.

Bununla Nikol Paşinyan Ermənistanın təcavüzkar olduğunu açıq bəyan etdi. Artıq rəsmi Bakı qeyd edilən məqam fonunda Ermənistana qarşı yeni diplomatik hücumlar edir. Xatırladaq ki, indiyə qədər heç bir erməni lider Qarabağın Ermənistanın olduğunu dilə gətirməyib, çünki bu, Azərbaycan torpaqlarının işğal edildiyini açıq şəkildə etiraf etməkdir. Paşinyan bu cür avantürist çıxışı ilə ölkəsini açıq müharibəyə sürükləyir. Onun bu məsuliyyətsiz çıxışı separatçıları da hiddətləndirib. Paşinyanla münasibətləri heç də yaxşı olmayan "Qarabağ klanı"nın təmsil olunduğu separatçı quruma tabe olan KİV bütün baş verənləri Paşinyanın təxribatı kimi nəzərdən keçirir, onlar deyirlər ki, bununla Baş nazir Azərbaycanı müharibəyə sövq etdirmək istəyir və kifayət qədər Bakının əlinə əsas vermiş olur. Bir sözlə, separatçı qurum və "Qarabağ klanı" Paşinyanın Xankəndidəki son çıxışını özlərinə qarşı təxribat kimi dəyərləndirib. Bunun səbəbi nə ilə bağlıdır?

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov qəzetimizə bildirdi ki, bunun səbəbləri bəllidir: "Paşinyan heç bir halda siyasətçi kimi addım atmayıb. O, meydandan çıxmış siyasətçidir. Orada ancaq populist çıxışlar etməklə gündəmə gəlib. Elə inqilabı da bunun fonunda edə bildi. Ancaq gördü ki, meydanda çıxış edib, vəd verməyin bir gün də hesabatı tələb olunacaq. Hazırda Paşinyan həmin hesabatı verə bilmir. İqtisadi vəziyyət daha da pisləşib, daxildəki siyasi qütblər arasındakı gərginlik daha antoqonist xarakter alıb. Məhz bunun nəticəsidir ki, "Qarabağ klanı"nın lideri, eks-prezident Robert Köçəryan həbsə salınıb. Xatırlayırsınızsa bu günlərdə Ermənistanın keçmiş prezidenti R.Köçəryanın mətbuata müsahibəsi oldu. O, müsahibəsində Ermənistanın hazırkı geosiyasi vəziyyətini çox yaxşı ifadə etmişdi. Demişdi ki, Ermənistan sərhədlərinin 83 faizi bağlıdır. Köçəryan deyir ki, Ermənistanın cəmi iki çıxışı var - biri Gürcüstan, digəri də İran. İranla bağlı məsələ odur ki, ABŞ-la gərginlik artır, İranın Ermənistana yardımı, dəstəyi çətinləşir. Gürcüstanla bağlı problem isə ondan ibarətdir ki, rəsmi Tiflis Qərb institutlarına inteqrasiyaya üz tutub. Bununla da Ermənistanın blokadası güclənir və vəziyyət daha da pisləşə bilər. Köçəryanın dediyinə görə, Ermənistan regional infrastruktur, nəqliyyat layihələri üçün cəlbedici məkan deyil, bölgədə unudulmuş bir dalana çevrilib. Azərbaycanın apardığı təcrid siyasəti də bu məsələdə böyük rol oynayır. Həmin müsahibədə Köçəryan demişdi ki, payızda Paşinyanın vəziyyəti pisləşəcək. Söhbəti inqilabın üzərinə gətirirdi. Bəllidir ki, Köçəryan tək özünü deyil, müəyyən qrupu təmsil edir. Onların mübarizəsi köhnə klanın hakimiyyətini bərpa etməkdən ibarətdir".

Ekspertin sözlərinə görə, Paşinyan bütün bunları dərk etdiyi üçün, ortanı qarışdırıb, hakimiyyətinin ömrünü uzatmaq istəyir: "Təsadüfi deyil ki, onun Xankəndidəki çıxışı elə Ermənistanın özünün daxili auditoriyası tərəfindən birmənalı qarşılanmayıb. Qarabağdakı separatçıların başında duran şəxs Paşinyana olan nifrətini açıq etiraf edir. Məhz həmin şəxs gəlib İrəvanda Köçəryanı azadlığa buraxdırmışdı. Separatçılar bilirlər ki, Paşinyanın bu cür çıxışı Azərbaycanın əlinə hərbi əməliyyatları başlamaq üçün daha ciddi əsas verir. Azərbaycan Ermənistan rəhbərinin çıxışını əsas gətirib, sülh danışıqlarından imtina edə bilər. Ancaq separatçı rejim bilir ki, onlar Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəklər. Üstəlik də Paşinyan tam əsas verib ki, beynəlxalq birlik də onları dəstəkləməsin. Paşinyanın məsuliyyətsiz çıxışı həm də ona qarşı müxalif olanların əlinə güclü şans vermiş oldu. Bu da Paşinyan hakimiyyətinin ömrünü daha da azaldacaq. Yəqin ki, beynəlxalq dairələr də müxalifətə mümkün dəstəyi verəcəklər ki, belə avantürist hakimiyyətdən tez salınsın".

***Məhəmmədəli QƏRİBLİ***

# Suriyanın şimalında Türkiyə-ABŞ alyansı - Rusiya-Türkiyə ünsiyyəti yeni sınaqda...

**Türkiyə və Birləşmiş Ştatlar Suriyanın şimalında planlaşdırılmış təhlükəsizlik zonasında əməliyyatların koordinasiya və onlara nəzarət edilməsi məqsədilə birgə əməliyyat mərkəzi yaratmaq haqda razılıq əldə ediblər.**




## *Məhəmməd Əsədullazadə: "Artıq Türkiyə qərarlıdır və öz sərhədlərindən terrorçu təşkilatı uzaqlaşdıracaq"*

Ankarada üç gün sürən danışıqlardan sonra iki ölkə Suriyanın şimalında Türkiyə ilə sərhəddə təhlükəsizlik zonasının "sülh dəhlizi" olacağını və müharibə nəticəsində məcburi köçkün olmuş suriyalıların vətənlərinə qayıtması üçün bütün səylərin göstəriləcəyini bildirib. Razılığın əldə edildiyi həm Türkiyənin Müdafiə Nazirliyi, həm də ABŞ-ın Ankaradakı səfirliyinin ayrı-ayrı verdiyi bəyanatlarda açıqlanıb.

Bəyanatların heç birində Vaşinqton və Ankara arasında əsas fikir ayrılığına səbəb olan məsələlərin həll edilib-edilmədiyi ilə bağlı bir söz deyilmir. Bu da təhlükəsizlik zonasının Suriyanın daxilində nə qədər uzanması və ərazidə patrul edən qüvvələrə kimin komandanlıq etməsi məsələləridir. Suriyanın şimalında yaranan yeni alyans hansı yenilikləri vəd edir? Politoloq Məhəmməd Əsədullazadə qəzetimizə bildirdi ki, Türkiyənin YPG/PKK terror təşkilatına qarşı Suriyanın şimalında, Fəratın şərq sahilində planlaşdırdığı əməliyyata Vaşinqton mane ola bilmir: "ABŞ-ın narahatlıq bəyanatlarına baxmayaraq, artıq Ankara ilə Vaşinqton arasında müəyyən razılaşma əldə olunub. Türkiyənin şərti ABŞ-ın YPG terror təşkilatını bu ərazilərdən çıxarması, yaxud hərbi əməliyyatlara mane olmamasıdır. YPG Türkiyəyə qarşı formalaşmış bir terror təşkilatıdır, hədəfi Şimali Suriyada muxtariyyət əldə etməkdir. Həmçinin, möhkəmlənərək Türkiyəyə qarşı terror hücumları həyata keçirməkdir. "Zeytun budağı" əməliyyatından fərqli olaraq, Fəratın şərqində əməliyyat birbaşa Türkiyənin YPG-PKK terror təşkilatına böyük zərbə vurmağı ilə nəticələnəcək və sərhədlərinin təhlükəsizliyi təmin olunacaq. Göründüyü kimi, ABŞ buna imkan vermək istəmir və öz müttəfiqi olan Türkiyə əleyhinə terror təşkilatı ilə əməkdaşlıq edir. Artıq Türkiyə qərarlıdır və öz sərhədlərindən terrorçu təşkilatı uzaqlaşdıracaq. Əldə olunan razılaşma buna xidmət edəcək".

> *"Ankara-Moskva tandemi Cənubi Qafqazda Qarabağ münaqişəsinin nizamlanmasında da mühüm rol oynaya bilər"*

Politoloq hesab edir ki, Türkiyə regionda bir gücdür və Rusiya ilə birgə Suriyada sülhə, eləcə də öz maraqları çərçivəsində təhlükəsizliyə nail olur: "Ankara-Moskva tandemi Cənubi Qafqazda Qarabağ münaqişəsinin nizamlanmasında da mühüm rol oynaya bilər. Hələ ki, Moskva buna getmir.

Əgər Türkiyə aktiv şəkildə problemi Suriya məsələsindən sonra qaldırsa, Moskva-Ankara danışıqları Qarabağ məsələsində müəyyən həll çərçivəsinə gələ bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya Mədəniyyət Nazirliyi Qarabağda erməni separatizmini dəstəkləyən filmi niyə maliyyələşdirir...

***Şamil Əliyev:** "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çəkilən filmə görə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Xarici İşlər Nazirliyi Rusiyanın müvafiq qurumlarına müraciət ünvanlamalı və buna rəsmi etirazlarını bildirməlidirlər"*

**Bu gün Rusiya kinematoqrafiyasında erməni əsilli kinematoqrafların olması Azərbaycan əleyhinə çəkilən filmlərin meydana gələməsinə səbəb olur. Dəfələrlə bu ölkədə yaşayan erməni kinematoqraflar müxtəlif vasitələrlə ölkəmizin ərazi bütövlüyünü şübhə altına almaq məqsədilə təxribatyönümlü işlər görüblər.**

Hazırda da onlar bu istiqamətdə fəaliyyətlərini davam etdirirlər. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf rayonlar haqqında təxribatçılığa xidmət edən filmlər çəkən ermənilər bu saxtakarlıqlarını həyata keçirmək üçün xarici kino şirkətlərindən istifadə edirlər. Şübhəsiz, onların əsas məqsədi Dağlıq Qarabağ münaqişəsinin gerçək mahiyyətini təhrif etmək, erməni xalqını "əzilən, zərərçəkən xalq" kimi təqdim etməkdir. Bununla yanaşı, işğal altında olan Azərbaycan ərazilərini də "tarixi erməni torpağı" olaraq qəbul etdirməkdir.

İndiyə qədər xaricdəki erməni lobbisinin təşəbbüsü ilə bir sıra xarici kino şirkətləri qanunsuz olaraq Dağlıq Qarabağ haqqında filmlər çəkiblər. Növbəti filmin isə Rusiya kinematoqrafçıları tərəfindən istehsalata buraxılmaq ərəfəsində olduğu bildirilir. Söhbət bu ölkədə çəkilməsi planlaşdırılan Qarabağla bağlı təxribat xarakterli filmdən gedir.






*"Bunun arxasında Rusiya kino sənayesinin ciddi fiqurları, maddi imkanlar və siyasi məqsədlər dayanır"*

Mətbuatın yazdığına görə, Rusiyanın "Veqa film" kino şirkətində Dağlıq Qarabağla bağlı təbliğat xarakterli film çəkilir. "Veqa film" kino şirkəti tərəfindən Xankəndi şəhərindən olan erməni rejissor Robert Defin rəhbərliyilə "Walter" adlı film çəkiləcəyi haqqında Rusiya KİVdə xəbər yer alıb. Baş rolda fransalı aktyor Bibi Nasirinin çəkiləcəyi ekran əsərində hadisələr 90-cı illərdə Dağlıq Qarabağ münaqişəsilə əlaqəli şəkildə baş verir. Hazırda bu filmin Rusiya Mədəniyyət Nazirliyinə təsdiqlənmək üçün təqdim olunduğu bildirilir.

Qeyd edək ki, Rusiyanın Moskva vilayəti azərbaycanlılarının regional milli-mədəni muxtariyyəti ölkənin mədəniyyət naziri Vladimir Medinskiyə müraciət edərək filmin çəkilişlərinin qadağan edilməsi tələbini irəli sürüb. Azərbaycanlıların regional milli-mədəni muxtariyyətindən nazirliyə ünvanlanan məktubda azərbaycanlı diaspor təmsilçiləri tanınmış aktyorları cəlb etmək yolu ilə bu filmin geniş ekranlara çıxarılmasının hədəflándiyini, bunun da Dağlıq Qarabağ münaqişəsilə bağlı aparılan danışıqlara mənfi təsiri ola biləcəyi, bu məsələnin, bütövlükdə, qardaş Rusiya ilə Azərbaycan xalqları arasında ədavət toxumları səpmək məqsədi daşıdığı vurğulanır.

Tanınmış kinorejissor Şamil Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Rusiyanın kino şirkətinin Dağlıq Qarabağ münaqişəsi haqqında film çəkməsi yolverilməzdir. O hesab edir ki, Rusiyanın dövlət büdcəsi hesabına çəkiləcəyi deyilən filmin çəkilişlərinin baş tutmaması üçün Azərbaycan tərəfi tədbirlər görməlidir. Ş.Əliyev qeyd etdi ki, əvvəlcə Rusiya kino şirkətinin ermənilərlə birləşib belə bir film çəkibçəkməməsi məsələsi araşdırılmalı və buna adekvat cavab verməlidir. "Ermənilərin Azərbaycan əleyhinə filmlər çəkməsi, bu yolla təxribatçılıqla məşğul olması yeni deyil. "Veqa film" kino şirkətində Dağlıq Qarabağla bağlı təbliğat xarakterli film çəkilirsə, artıq buna ciddi reaksiya verilməlidir. Bu kimi məsələlərə bir-iki rejissor, kino mütəxəssisi səviyyəsində cavab verilməsi elə effekt verməyəcək. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çəkilən filmə görə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Xarici İşlər Nazirliyi Rusiyanın müvafiq qurumlarına müraciət ünvanlamalı və buna rəsmi etirazlarını bildirməlidirlər. Əminəm ki, hər iki nazirlik bu addımı atacaq və belə təxribatçı bir filmin çəkilməsinin qarşısını almağa nail olacaq. Bilirsiniz ki, belə bir film çəkilirsə, burada ancaq güclü maliyyə dəstəyindən söhbət getmir, həm də görünür ki, bu filmin çəkilməsi üçün ortada siyasi razılıq var. Yəni bu filmin çəkilməsində siyasi razılıq amili istisna deyil. Bu səbəbdən də Azərbaycanın aidiyyəti qurumları bu filmlə bağlı tədbir görməlidirlər. Film çəkmək elə asan məsələ deyil, burada pul amili ilə yanaşı, siyasi dəstək də əsasdır. Görünür, o filmi çəkmək istəyən kino şirkətinə ciddi maliyyə dəstəyilə yanaşı, siyasi dəstək verənlər də var. Arxasında ciddi siyasi güc dayanan bir filmi çəkmək istəyənlərə də ciddi cavab verilməlidir. Çünki bunun arxasında Rusiya kino sənayesinin ciddi fiqurları, maddi imkanlar və siyasi məqsədlər dayanır".

Ş.Əliyevin bildirdiyinə görə, heç bir vaxt Xankəndinin kino sənayesi olmayıb, indi də yoxdur. O hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini təhrif etmək istəyən ermənilər layiqli cavablarını almalıdırlar. Kinorejissorun sözlərinə görə, Azərbaycanın torpaqları işğal olunub və öz doğma yurdlarından azərbaycanlılar didərgin düşüblər, münaqişədən ən çox zərər çəkən də ermənilər yox, bizik.

***İradə SARIYEVA***

**Avqustun 7-də Qırğızıstan xüsusi təyinatlıları ölkənin sabiq prezidenti Almazbek Atambayevin saxlanılması üçün paytaxt Bişkekdən 12 km aralıda olan Koy-Taş kəndində yerləşən iqamətgahına basqın edib. Baki-xeber.com xəbər verir ki, əməliyyat zamanı Atambayevin tərəfdarları ilə xüsusi təyinatlılar arasında qarşıdurma yaranıb. Məlumatlara görə, xüsusi təyinatlılar sabiq prezidentin tərəfdarlarına qarşı xüsusi vasitələrdən istifadə edib. Atambayevin tərəfdarları isə cavab atəşi açıblar.**

# Qırğızıstanın sabiq prezidentinin iqamətgahında qanlı toqquşma...

## Xüsusi təyinatlılar Atambayevi yalnız ikinci əməliyyatda yaxalaya bildi

Sabiq prezidentin tərəfdarları bildirir ki, xüsusi təyinatlılar əməliyyat zamanı əvvəl rezin güllələrdən, daha sonra isə həqiqi güllələrdən istifadə ediblər. Ancaq qarşıdurmalarda yaralanmalar və bir nəfərin öldürülməsindən sonra əməliyyat yarımçıq dayandırılıb. Keçmiş prezidenti saxlamaq mümkün olmayıb. Bir neçə xüsusi təyinatlı da əsir düşüb.

Atambayevlə bağlı xüsusi əməliyyatda 52 nəfər xəsarət alıb. RİA "Novosti"nin xəbərinə görə, Səhiyyə Nazirliyi əməliyyat zamanı bir xüsusi təyinatlının həlak olduğunu bildirib. Bundan başqa, Daxili İşlər Nazirliyinin Çuy vilayəti üzrə idarəsinin rəisi Samat Kurmankulov travma alıb. Hazırda onun komada olduğu bildirilir.

Əməliyyat dayandırıldıqdan sonra Koy-Taş kəndindəki evindən telefonla xalqa müraciət edən Atambayev onu dəstəkləyənlərə təşəkkür edib. O, polisə yazılı ifadə vermək istəyini deyib: "Sizə böyük bir acı ilə müraciət edirəm. Hökumət Konstitusiyanı pozaraq məni saxlamaq istədi. Məni susdurmaq istədi. Axşam saatlarında silahlarla gəldilər. Öncə rezin güllələrdən, sonra isə əsl güllələrdən istifadə etdilər. Çox təəssüflənirəm və utanıram. Atambayev terrorçu deyil. Məni dəstəkləməyə gələn vətəndaşlar terrorçu deyil. İqtidar öz xalqına qarşı silahdan istifadə etdi.

İqtidara səslənirəm - dayanın".

Qırğızıstanın Baş Prokurorluğu isə Atambayev barəsində "Kütləvi iğtişaşlar" və "Xuliqanlıq" maddələri üzrə cinayət işi açıb.









### *Ölkənin Milli Təhlükəsizlik Komitəsinin sədri uğursuz birinci əməliyyata görə istefa vermək istədi, ancaq...*

"Sputnik Qırğızıstan" xəbər verir ki, ölkə prezidenti Sooronbay Jeenbekov Təhlükəsizlik Şurasının avqustun 8-də keçirilən iclasında bildirib ki, Atambayev qanun çərçivəsində aparılan istintaq tədbirlərinə sərt silahlı müqavimət göstərməklə Qırğızıstan Konstitusiyasını və qanunlarını kobud şəkildə pozub. Təhlükəsizlik Şurası son hadisələrlə bağlı qərar da qəbul edib. Lakin qərarın mətni açıqlanmır.

Bu arada, Atambayev Koy-Taş kəndində yerləşən iqamətgahına xüsusi təyinatlılar tərəfindən hazırlanmış əməliyyat zamanı tərəfdarlarının girov götürdüyü şəxsləri azad edəcəklərini bildirib. Sabiq prezident artıq onların bəzilərinin azad edildiyini qeyd edib. A.Atambayev deyib: "Onlar da kiminsə övladlarıdır, biz başa düşürük. Biz onları mütləq buraxacağıq. Əksəriyyətini artıq dünən sərbəst buraxmışıq".

Almazbek Atambayev, həmçinin, xüsusi təyinatlılara şəxsən atəş açdığını və tərəfdarlarında silah olmadığını bildirib: "Mənim ətrafımdakı insanların silahı yox idi, ona görə də şəxsən özüm atəş açmalı oldum".

A.Atambayev insanları hədəf almadığını deyib və saxlanan xüsusi əməliyyatçıların azad olumasına kömək göstərməyə hazır olduğunu vurğulayıb.

Ölkə parlamentinin dünən çağırılmış növbədənkənar iclasında isə Qırğızıstan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Orozbek Opumbayev istefa verməyə hazır olduğunu bildirib. O.Opumbayev deyib ki, Qırğızıstanın sabiq prezidenti Almazbek Atambayevin saxlanması üçün təşkil edilmiş əməliyyatın uğursuz olması onun səhvidir. Ölkə prezidenti Sooronbay Jeenbekov isə O.Opumbayevin istefa qərarını qəbul etmək niyyətində olmadığını deyib.

Eyni zamanda, A.Atambayevin tərəfdarları əməliyyat zamanı ələ keçirilmiş yaralı xüsusi təyinatlıların buraxıldığını bildirib. Qeyd olunur ki, 6 xüsusi təyinatlı tibbi müayinədən keçirildikdən sonra hökumətə təhvil verilib.

Qırğızıstan xüsusi təyinatlıları dünən sabiq prezident Atambayevin saxlanması üçün ikinci dəfə əməliyyat keçirib. Baki-xeber.com xəbər verir ki, günorta saatlarında təhlükəsizlik qüvvələri Atambayevi tutmaq üçün paytaxt Bişkekdən cənubda, Çuy bölgəsindəki Koy-Taş kəndindəki evinin qarşısına gəlib. Şahidlərin sözlərinə görə, srağagün gecə girov götürülən 6 xüsusi təyinatlı sərbəst buraxılıb və təhlükəsizlik qüvvələri Atambayevin evinin ərazisinə girmək üçün səs qumbaralarından istifadə ediblər.

Sosial mediada yayılan görüntülərdə sabiq prezidentin yüzlərlə tərəfdarı, o cümlədən, bir çox qadın Atambayevin evinin yerləşdiyi ərazidə təhlükəsizlik qüvvələrinə müqavimət göstərib. Əməliyyatın başlamasından sonra polis Koy-Taş kəndinə aparan bütün yolları bağlayıb. Bölgədə mobil telefon və internet də kəsilib.

Qarşıdurmalardan sonra Qırğızıstanın keçmiş prezidenti Almazbek Atambayev təhlükəsizlik qüvvələri tərəfindən saxlanıb.

Qeyd edək ki, iyunun 20-də Qırğızıstan parlamenti sabiq prezidentə qarşı irəli sürülmüş ittihamların siyahısını prokurorluq orqanlarına təqdim edib. Siyahı deputatlardan ibarət xüsusi komissiya tərəfindən hazırlanıb.

Atambayev paytaxt Bişkekin istilik elektrik mərkəzinin təkmilləşdirilməsi zamanı korrupsiya, mütəşəkkil cinayət dəstəsinin başçısı Əziz Batukayevin saxta tibbi arayışla azadlığa buraxılması və digər qanundankənar fəaliyyətdə günahlandırılır. Atambayevin bu cinayətlərdə əlinin olduğu aşkar olunarsa, o, ömürlük həbs oluna bilər.

Sabiq prezident bu ittihamları "absurd" adlandırıb və xalq qarşısında təmiz olduğunu bildirib.

Almazbek Atambayev 201-ci ildən 2017-ci ilədək Qırğızıstanın prezidenti olub.

# Qızılın qiymətlərində sürətli artım başladı...

**Dünya bazarlarında son dövrlərdə qızılın sürətlə bahalaşması müşahidə edilməkdədir. Bu hal artıq Azərbaycanda da özünü qabarıq şəkildə büruzə verir. Belə ki, ölkəmizə gətirilən qızıl məmulatlarının qiymətində müəyyən artım qeydə alınır.**

Amma bu gedişlə artımın davamlı olması, ilin sonuna kimi qızılın əhəmiyyətli dərəcədə bahalaşması gözlənir. Buna səbəb dünyada qızıla tələbin artması fonunda onun bahalaşmasıdır.

Son məlumatlara görə, ABŞ-ın Nyu-York əmtəə birjasında qızılın 1 unsiyasının qiyməti 2013-cü ilin aprel ayından bəri ilk dəfə 1 500 dolları keçərək 1 503 dollarda qərarlaşıb. Eyni prosesin London əmtəə birjasında da getdiyi bildirilir. Analitiklərin fikrincə, ABŞ və Çin arasında ticarət müharibəsinin yenidən qızışması, qlobal iqtisadi artımın ləngiməsi, dünyanın mərkəzi banklarının pul-kredit siyasətini yumşaltması fonunda investorların qızıla tələbatı artıb. Odur ki, qiymətli metal bahalaşmaqdadır. İlin əvvəli ilə müqayisədə qızıl, təxminən, 17% dəyər qazanıb. Amma qeyd olunduğu kimi, qızılın bahalaşması davam edəcək. Bu, dünya ölkələri arasında ticarət savaşının qızışması və valyutaların dəyərdən salınması fonunda qızılın daha etibarlı vəsait olması ilə bağlıdır. Qızılın heç bir ölkənin pul siyasətinə bağlı olmaması, likvid aktiv olması, istənilən vaxt başqa bir malla, xidmətlə və yaxud valyuta ilə dəyişdirilə bilməsi onun etibarlı aktiv kimi statusunu qoruyub saxlamasına səbəb olub. Kağız puldan fərqli, olaraq qızıl inflyasiya nəticəsində dəyərdən düşmür və ən əsası, onun təklifi məhduddur. İndilikdə isə qızıla investisiya məqsədli tələbat artır, bir çox ölkələr ehtiyatlarındakı dolları və digər valyutaları qızılla əvəzləyir. Bu prosesdə hazırda Rusiya, Çin kimi ölkələr liderlik edir. Bir çox ölkələrdə də Mərkəzi Banklar qızıla investisiya edərək likvid aktiv növlərini artırır, valyuta ehtiyatlarını şaxələndirirlər. Fərdi və institusional investorlar da öz portfellərini qızıl vasitəsilə şaxələndirir. Məhz bunlar qızılı indi daha sürətlə bahalaşdırır. Belə vəziyyət qızılın dünya bazarında qiymətinin artımını sürətləndirir. Yuxarıda qeyd olunduğu kimi, bu da Azərbaycan qızıl bazarına da təsirsiz ötüşməyib.




Məsələ ilə bağlı iqtisadçı ekspert Vüqar Bayramov bildirir ki, qızılın qiymətinin artması dünya bazarında ona olan tələbatın artımı ilə əlaqədardır:"2018-ci ilin sonu, 2019-cu ilin əvvəllərində qızılın qiymətində artımın olacağını proqnozlaşdırmışdıq. Bundan başqa, Çin və ABŞ arasındakı ticarət müharibəsi birbaşa qlobal iqtisadi artım tempinin azalmasına gətirib çıxarıb. Bu azalma fonunda investor portfellərini şaxələndirirlər ki, bu da bazarda qızılın qiymətinin artmasına səbəb olub". Onun sözlərinə görə, son bir ildə dünya bazarında qızılın qiyməti təxminən 10 faiz artıb: "Bu, son illərin kifayət qədər yüksək artımı kimi qiymətləndirilir. Artım bu tempdə davam edir. Altı aylıq və bir aylıq yekunlarda da qızıl, faktiki olaraq, mövqelərini möhkəmləndirib. Ticarət müharibəsi davam etdikcə, növbəti aylarda da qızılın qiymətində artım olacaq. 2019-cu ildə dünya bazarında qızılın qiymətində ikirəqəmli artımın olacağı proqnozlaşdırılır. Bu da faiz baxımından ən yüksək artım kimi qiymətləndirilir".

O qeyd edib ki, qızılın dünya bazarında qiymətinin artması Azərbaycan istehlak bazarına da təsir edib: "Azərbaycan qızıla olan tələbatının 95 faizini, əsasən, dörd ölkədən edilən idxal hesabına ödəyir. Bunlar Səudiyyə Ərəbistanı, İtaliya, Rusiya və Türkiyədir. Son monitorinqlər göstərir ki, ölkədə son altı ayda qızılın qiymətində yeddi faizə yaxın artım qeydə alınıb. Növbəti dövrdə də Azərbaycanda qızılın qiymətinin artacağı proqnozlaşdırılır. Nəzərə alsaq ki, sentyabrdan Məhərrəm ayı başlayır. Sentyabr və oktyabr aylarında qızılın qiymətində stabilləşmə olacaq. Noyabr ayından etibarən qızılın qiymətində yenidən artımların olacağı proqnozlaşdırılır. Bu artım təxminən səkkiz faiz olacaq".

Hazırda qeyri-müəyyən geosiyasi vəziyyət, qızılın digər aktiv növlərinə, o cümlədən daşınmaz əmlaka və qiymətli kağızlara nəzərən ucuz olması və qızıl hasilatının son illər nisbətən azalması onun qiymətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bu vəziyyətdə Azərbaycanın da valyuta ehtiyatlarının tərkibində qızılı artırması məqbul hal sayılır. İndi Azərbaycan Dövlət Neft Fondunun qızıl ehtiyatları davamlı artırılır. Fondun investisiya siyasəti və investisiya qaydalarının tələblərinə uyğun olaraq, 30 iyun 2019-cu il tarixinə qurumun investisiya portfelinə daxil olan qızılın miqdarı 95,47 ton və ya 3 milyon 69 414 unsiyadır. Bu da indiki qiymətlərlə 4 milyard 356,4 milyon dollar təşkil edir. İnvestisiya portfelinə daxil olan qızıl yatırımlarının bundan sonra daha sürətlə artırılması gözlənir. Bunu digər ölkələr də edir. Rəsmi statistikaya əsasən, Çin və Rusiya ən çox qızıl alan ölkələr siyahısındadır. Bu da təsadüfi deyil. Çünki onların iqtisadiyyatlarının həcmi ilə qızıl ehtiyatları arasında ciddi disbalans mövcuddur. Belə ki, dünyanın ikinci iqtisadiyyatı olmasına baxmayaraq, Çinin rəsmi qızıl ehtiyatları olduqca azdır. Rusiya isə rəqiblərindən geri qalmaq istəmir. Eyni zamanda, ticarət müharibəsinin qızışması fonunda da qızıl ən etibarlı valyuta sayılır. Bundan əlavə, geosiyasi və geoiqtisadi vəziyyətin getdikcə pisləşməsi, gələcək perspektivlərin qeyri-müəyyənliyi fərdi və institusional investorları da qızıla yönəldir. Qızılın qiymətinin artmasının digər səbəbi isə neft və valyuta bazarında müşahidə edilən çalxalanmalar fonunda investorların öz pullarını daha az risqli istiqamətə yönəltməsi ilə bağlıdır. Ən əsası isə, milli valyutaların mövqeyinin zəifləməsi insanları öz vəsaitlərini daha etibarlı görünən qızıla yatırmalarına səbəb olur. Hazırda bir çox ölkələrin öz valyutalarını ucuzlaşdırması fonunda dünyada müşahidə olunan da məhz budur.

***Tahir TAĞIYEV***

**Qeyri-neft sektorunun ən mühüm qollarından biri kimi aqrar sektorda məhsul istehsalının və ixracının artımı bu gün xüsusi diqqət mərkəzində yer alır. Qeyd olunan səpkidə dövlətin atdığı mühüm addımlardan biri isə fermerlərin daha çox məhsul istehsalına nail olmaları üçün onlara həm də maliyyə dəstəyi verilməsidir.**

# Azərbaycan aqrar sektordan daha çox valyuta qazanmaq ərəfəsində...




Bu xüsusda ən vacib məqamlardan biri də fermerlərə subsidiyaların ödənilməsi üçün yeni qaydaların müəyyən edilməsidir.

Qeyd edək ki, Prezidentin cari ilin iyununda verilmiş "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydası" təsdiqlənib. Qaydaya əsasən, 2020-ci il yanvarın 1-dən etibarən fermerlərə subsidiyaların ödənilməsi üçün sənədlər elektron sistem üzərindən yığılacaq, subsidiyaların maneəsiz, kənar müdaxilələr olmadan və sürətli verilməsi təmin ediləcək, təchizatçı və tədarükçülərin fermerlərlə tərəfdaşlığı şəffaflaşmış şəkildə aparılacaq. Artıq yeni qaydalarla bağlı fermerlərlə iş aparılır. Vəziyyətin təhlili göstərir ki, yeni subsidiya sistemi çərçivəsində fermerlər heç bir bürokratik əngəllər olmadan, elektron sistem vasitəsilə müraciət edə biləcəklər.

-Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev bildirir ki, növbəti il üçün nəzərdə tutulan mexanizm sayəsində fermerlərin verdiyi məlumatların doğruluğunu araşdırmaq mümkün olacaq. Elektron sistem vasitəsilə aparılan müşahidə nəticəsində fermerin səhv məlumat verdiyi məlum olarsa, onun səhvi təqribən 5 faizədək olduqda bağışlanacaq. Agentliyin sədri bununla bağlı xüsusi meyarların da müəyyən olunduğunu diqqətə çatdırıb. Belə ki, səhv məlumatlar 50 faizi keçdikdə cari il və növbəti il üçün həmin fermerin torpağına subsidiya verilməyəcək. Bu mexanizmlər bəzi fermerləri bu cür neqativ hallardan qaçırmaq məqsədi daşıyır. Eyni zamanda, görülən tədbirlər artıq məhsulun istehsalının real həcmini də tam müəyyən etməyə imkan verəcək. Bu mənada, yeni subsidiya sisteminin böyük əhəmiyyət kəsb etdiyi vurğulanır.

Şübhəsiz ki, burada həm də ən əsas məqamlardan biri fermerlərin dövlət dəstəyini almasının asanlaşmasıdır. İndiyə qədər olan qaydalarda fermerlər il ərzində subsidiyanın alınması ilə bağlı yerli və mərkəzi icra hakimiyyəti orqanlarına müraciət edirdilər. Bu da, təbii ki, daha çox prosedur deməkdir. Bəzi hallarda fermerlərin subsidiyalara əlçatanlığının təmin edilməsində çətinliklər olurdu. Yeni mexanizm birmənalı şəkildə imkan verir ki, fermerlər subsidiyanın alınması üçün elektron müraciət etsinlər. Bu da fermerlərin daha qısa zamanda subsidiya almasına imkan verəcək. Belə ki, fermerlərin müraciətləri müvafiq agentlik tərəfindən baxılaraq subsidiyanın verilməsi ilə bağlı qərar qəbul ediləcək. Növbəti ildə isə fermerin müraciətində dəyişiklik olmayacaqsa, onun yenidən müraciət etməsinə ehtiyac qalmayacaq. Məlumatlar elektronlaşdırılacaq, "Elektron hökumət" portalına inteqrasiya olunacaq. Bu da fermerin yenidən müraciətinə zəmin yaratmayacaq. Digər vacib məqamlardan biri aqrar sektorda istehsalın təşviq edilməsi, istehsalın regionlar və məhsullar üzrə təşviqinə nail olunmasından ibarətdir. Qaydalara əsasən, əkin və məhsul əmsalları tətbiq olunacaq, bu da baza qiymətinə vurularaq əkinçilik və məhsul istehsalına görə veriləcək subsidiyanın məbləği müəyyənləşdiriləcək. Bu zaman regionlar və məhsul istehsalı əsas amil kimi götürüləcək. Məqsəd bir sıra istehsal üzrə ixtisaslaşmış regionlarda məhsul istehsalına daha çox subsidiyanın verilməsinin həyata keçirilməsidir. Bu da, təbii ki, həmin regionlarda ənənəvi və ixtisaslaşmış məhsul istehsalının genişləndirilməsinə imkan verəcək. Bu həm də məhsul istehsalının daxili bazara və ixrac imkanlarına uyğun olaraq təşviq edilməsinə şərait yaradacaq. Çünki əvvəllər bəzi hallarda bir sıra məhsullar üzrə daha çox məhsul istehsal olunurdu, həmin məhsulların satılmasında problem yaranırdı, qiymət isə kəskin enirdi ki, bu da fermerlərin gəlirliliyinə mənfi təsir göstərirdi. Eyni zamanda, bəzi məhsullar az istehsal olunurdu, həmin məhsulların qiyməti yüksək olurdu. Subsidiyaların verilməsi imkan yaradacaq ki, disbalansın aradan qaldırılmasına nail olunsun. Bu, məhsul istehsalının həm növ, həm də regionlar üzrə təşviqinə imkan verəcək.

Ən əsas məqamlardan biri də budur ki, monitorinq mexanizmləri də kifayət qədər gücləndiriləcək. Bu, subsidiyanın verilməsində şəffaflığın artırılması baxımından vacibdir. Yeni monitorinq mexanizmlərinin tətbiqi zamanı məlumatın uzlaşdırılması həyata keçiriləcək, prosesdə şəffaflığın təmin edilməsinə nail olunacaq. Yeni qaydalar həm də fermerlərin kooperasiyalar formasında fəaliyyət göstərməsini təşviq edir. Belə ki, 50 hektardan artıq sahəyə malik olan fermerlər 10 faiz çox subsidiya alacaqlar. Bu da fermerlərin kooperativlər formasında fəaliyyət göstərməsini təşviq edən məqamlardan biridir, eyni zamanda, xərcin azaldılması və məhsul istehsalının genişləndirilməsi baxımından vacibdir. Eyni zamanda qaydalar subsidiyanın aqrar məqsədlə alınan kreditin ödənilməsi üçün də yönəldilməsinə imkan verir. Əgər fermerin aqrar krediti varsa, həmin razılaşma ilə subsidiyanın kreditin qaytarılmasına yönəldilməsi mümkündür. Bütün bunlar fonunda aqrar sahədə yeni bir vəziyyətin yaranması gözlənir. Belə vəziyyət ölkədə aqrar sahədə daha böyük həcmdə məhsul istehsal edilməsini istisna etmir. Aydındır ki, bu hal da öz növbəsində aqrar sahədə ixracın artımına rəvac verəcək. Bu gedişlə aqrar sahə üzrə valyuta gəlirlərinin yüz milyonlarla dollar həcmində olması gözlənilir. Başqa sözlə, aqrar sektor Azərbaycana valyuta gətirən əsas sahələr sırasında yer alacaq.

***Nahid SALAYEV***

# Türkiyə-Rusiya ünsiyyətinin sınağa çəkildiyi daha bir səhnə - Zelenski Ərdoğanla Donbasdan danışdı...

***Aqşin Əliyev:** "Krımla bağlı məsələdə Rusiya az qala dünyanın yarısı ilə düşmənçilik edir, ancaq eyni mövqeni bölüşən Türkiyəyə qarşı xoş mövqedədir"*

**Ukrayna Prezidenti Vladimir Zelenskinin Türkiyəyə səfəri ərəfəsində Donbasda vəziyyət gərginləşib. Avqustun 6-da separatçılar 4 Ukrayna hərbçisini qətlə yeiriblər. Bundan sonra Zelenski təcili şəkildə güc qurumlarını yığıb, toplantı keçirib. Sonra isə onun təşəbbüsü ilə Putinlə aralarında telefon danışığı olub.**

Qeyd edək ki, Zelenskinin seçkiqabağı verdiyi vədlərdən ən əsası separatçı ocaqlarla bağlı vəziyyəti normallaşdırmaqla bağlı olub. Gərginliyin fonunda, Ukrayna Prezidentinin Türkiyəyə səfəri baş tutub. Onun Türkiyə Prezidenti Ərdoğanla keçirdiyi birgə mətbuat konfransında maraqlı fikirlər səslənib. Məsələn, Ərdoğan deyib ki, Krımın işğalı ilə barışmırlar və Ukraynanın ərazi bütövlüyünü tam dəstəkləyirlər. Zelenski isə, öz növbəsində, bildirib ki, Donbasın bərpası ilə bağlı Türkiyənin aktivliyini görmək istəyir. Hətta Zelenski deyib ki, Mariopol şəhərində keçirilməsi nəzərdə tutulan Donbasın bərpası ilə bağlı beynəlxalq konfransda Türkiyənin aktiv iştirakını xüsusilə arzulayırlar. Zelenski həm də Ərdoğanı Ukraynaya rəsmi səfərə dəvət edib. Məlumdur ki, hazırda Türkiyə ilə Rusiya arasında münasibətlər yaxşı səviyyədədir. Ərdoğan Zelenskinin təklifini qəbul edib, Donbasın bərpası işinə aktiv qoşulsa, nə baş verər?

Ekspert Aqşin Əliyev "Bak-Xəbər"ə bildirdi ki, Türkiyə bütün addımlarını ölçülüb-biçilmiş halda atır: "Bilirsiniz ki, Rusiya-Türkiyə münasibətləri hər zaman hamar olmayıb. Klassik "siyasətdə daimi dost, düşmən yoxdur, daimi maraqlar var" deyiminə uyğun şəkildə cərəyan edib. Hazırkı şəraitdə Rusiya ilə Türkiyə arasında yaxın əməkdaşlıq var. Amma hər iki ölkə tarixi imperiyaların varisi olduqları üçün, birvektorlu siyasət yürütmürlər. Məsələn, bütün Avropa Rusiyanı Krımın ilhaqına görə qınayır, həm də sərt sanksiyalar tətbiq edir. Türkiyə də Avropa ilə eyni mövqeni bölüşür, ancaq sanksiyalara qoşulmur, əksinə, Rusiya ilə münasibətləri, iqtisadi əlaqələri daha da gücləndirir. Görürsünüz ki, Krımla bağlı məsələdə Rusiya az qala dünyanın yarısı ilə düşmənçilik edir, ancaq eyni mövqeni bölüşən Türkiyəyə qarşı xoş mövqedədir. Donbasın bərpası Rusiyanın razılığı ilə ola bilər. Yəni Rusiya ilə yeni Ukrayna hakimiyyəti razılığa gəlsə, bu baş tuta bilər. Onda Türkiyənin də həmin prosesdəki iştirakı məqbul sayılar. Hələlik söhbət birbaşa bərpadan getmir, bunun müzakirəsi ilə bağlı təşkil ediləcək beynəlxalq konfransda iştirakdan gedir. Mənə elə gəlir ki, belə bərpa prosesi başlasa, Rusiyanın özü də maraqlı olar ki, prosesdə hansısa Avropa ölkəsi deyil, yaxın dostu olan Türkiyə iştirak etsin. Çünki Türkiyənin bu sahədə təcrübəsi genişdir. Zelenskinin davranışlarından da görünür ki, o, Türkiyəyə çox güvənir. Bir növ, Ərdoğandan Rusiya ilə Kiyevin münasibətlərini normallaşdırmaq üçün vasitəçi qismində yararlanmağa çalışır. Ukrayna ilə bağlı məsələdə Türkiyə Rusiyanı qıcıqlandıra biləcək hər hansı addımın atılmasına maraqlı olmaz".



***Məhəmmədəli QƏRİBLİ***



# Ukraynanın eks-prezidenti Poroşenkoya vergidən yayınma ittihamı ilə iş açıldı

**May ayında Ukrayna prezidenti postunu Zelenskiyə təhvil verən Petro Poroşenko vergidən yayınmaqda ittiham edilir.**

Baki-xeber.com xəbər verir ki, Ukrayna Dövlət Təftiş Bürosu Ukraynanın keçmiş prezidenti Poroşenkonun avqustun 12-də ifadə verəcəyini açıqlayıb.

Açıqlamada Poroşenkonun özəl televiziya kanalı olan "Pryamoy" kanalını satın alarkən vergidən yayınmaqda ittiham edildiyi deyilir.

Poroşenkoya, eyni zamanda, vəzifədə olduğu dönəmdə Maldiv adalarına tətilə gedərkən dövlət sərhədini qanunsuz keçmək ittihamı ilə də cinayət işi açılıb.



# Ruhani üsyan etdi - hətta xəstələr də ABŞ-ın təzyiqlərindən əziyyət çəkir

**İran prezidenti Həsən Ruhani ABŞ-ın İrana qarşı sanksiyalarının "bəşəriyyətə qarşı cinayət" olduğunu və adi vətəndaşların, hətta xəstələrin də ABŞ-ın təzyiqlərindən əziyyət çəkdiyini deyib.**

Baki-xeber.com xəbər verir ki, hökumətin iclasında çıxış edən Ruhani tibbi vasitə və dərmanlara tətbiq olunan sanksiyalarla bağlı açıqlamalar verib.

"Ölkəmizdə düşmənlərin təzyiqləri, uşaqlar və xəstələr də daxil olmaqla, bütün insanlara tətbiq olunur" - Ruhani deyib.

İranın səhiyyə naziri Səid Namaki də İrana dərman satışının qarşısının alınmasının insanlığa qarşı cinayət olduğunu deyib. Hər hansı bir ölkənin səhiyyə sektoruna sanksiyalar tətbiq edilməsinin qeyri-insani addım olduğunu deyən Namaki ölkə daxilində dərman tədarükündə çətinlik çəkdiklərini bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın məsuliyyətsiz mitinq çıxışından sonra dünya mediası "Müharibə mövzusunu" önə çıxardı

**Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə məlum çıxışından sonra Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümidlər daha sürətlə tükənir. Ən azı o baxımdan ki, Paşinyan özünün populist ritorikasında Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilər üzrə mövqeyini açıq şəkildə meydana qoyaraq, məsələnin sülh yolu ilə tənzimlənməsindən İrəvanın kifayət qədər uzaq olduğunu açıq şəkildə nümayiş etdirdi.**

Yəni daha əvvəl Ermənistanın Dağlıq Qarabağa kömək etdiyi hesab edilirdisə, indiki vəziyyətdə İrəvan Dağlıq Qarabağ və qonşu rayonların işğalına görə məsuliyyəti rəsmi olaraq üzərinə götürüb. Məhz bu səbəbdən ekspertlər hesab edir ki, yaranmış vəziyyətdə beynəlxalq ictimaiyyət, xüsusən də ATƏT-in Minsk Qrupuna vasitəçilik edən dövlətlər Ermənistana qarşı sərt addımlar atmalı, hətta sanksiyaların tətbiq olunması gündəmə gəlməlidir. Çünki Nikol Paşinyanın mövqeyi İrəvanın bütün sülh prosesinin üzərindən xətt çəkdiyini aydın göstərir.

Beləliklə, yaranmış vəziyyət Dağlıq Qarabağ münaqişəsinin həllində artıq yeni bir mərhələ açır. Bu mərhələdə isə sülh variantına yer qalmır və bütün bunlara görə məsuliyyət birbaşa Ermənistan rəhbərliyinin üzərinə düşür. Rusiyalı ekspert Yevgeni Mixaylov da məsələyə məhz bu prizmadan yanaraşaraq qeyd edir ki, Nikol Paşinyan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasının qarantı olan ölkələrə də son çıxışı ilə meydan oxuyur, İrəvanın Azərbaycanla sülhə hazır olmadığına açıq şəkildə eyham vurur: "Nikol Paşinyanın Xankəndidə çıxışı coşqun fantaziyanın uçuşmasına daha çox oxşayır və fikrimcə, Ermənistan əhalisi bunu gözəl başa düşür. Paşinyan işğal olunmuş ərazilərdə çıxış etməklə Bakıya və Qarabağ münaqişəsini həll etməyə çalışan digər ölkələrə eyham vurur ki, Ermənistan sülhə hazır deyil". Onun sözlərinə görə, Ermənistan baş nazirinin populist davranışı sağlam düşüncə çərçivəsinə sığmır: "Bu ya tam laqeydlikdir və razılığa gəlməyin vacibliyini başa düşməmək istəyidir, ya da Paşinyan kiminləsə razılağa gəlməyə çalışır və bu davranışı sərgiləmək üçün hansısa təminatlar alıb. İstənilən halda, onun etdiyi hər şey sağlam düşüncə çərçivəsinə sığmır. Qeyd etmək lazımdır ki, Paşinyan Xankəndidəki çıxışı ilə sübut etməyə çalışır ki, Qarabağ erməniləri və Ermənistan bir ölkədir, bu da, həmçinin, sülh nizamlanması ilə məşğul olan ölkələrə çağırışdır. Elə təəssürat yaranır ki, Ermənistan və onun lideri onlardan başqa heç kəsin olmadığı paralel gerçəklikdə yaşayır". Mixaylov vurğulayıb ki, Paşinyanın bəyanatı Ermənistanın daxili auditoriyasına hesablanıb, o, ölkə əhalisi arasında populyarlığını sürətlə itirir: "Paşinyanın populyarlığını itirməsi aşkardır və o, erməni millətinin böyük gələcəyi haqqında populist çıxışlar edir. Ermənistanın nəinki 5 milyon əhalisi olmayacaq, hətta qeyd edilən 3 milyon əhalidən yalnız miqrasiya üçün pulu çatmayanlar ölkədə qalacaq".

Avropada Prospektiv və Təhlükəsizlik İnstitutunun prezidenti, fransalı ekspert Emmanuel Dupuy isə bildirir ki, ümumiyyətlə, Nikol Paşinyanın Dağlıq Qarabağa səfəri beynəlxalq hüquqa ziddir: "Məsələnin hüquqi tərəfinə gəldikdə, bu səfər, sözsüz ki, beynəlxalq hüquqa ziddir. Dağlıq Qarabağ işğal olunmuş ərazidir. Bunu artıq hamı bilir. Paşinyan Azərbaycan prezidenti ilə danışıqlar zamanı qaldırılan məsələlərin reallaşdırılması üçün öz qətiyyətini sözdə deyil, əməldə göstərməlidir. Bunun üçün də o, Dağlıq Qarabağdakı separatçılara təsir göstərməlidir". Aydındır ki, proseslərin indiki şəkildə inkişafı Qarabağda yeni savaşı da qaçılmaz edir. Rusiyanın "regnum.ru" portalı bu xüsusda yazır: "Azərbaycan Nikol Paşinyanın Xankəndidəki mitinqdə "Dağlıq Qarabağ Ermənistandır" bəyanatına sərt reaksiya verib. Bakı bunu "bölgəni təhlükə və risqlərlə üzüzə qoyan destruktiv və fitnəkar", "Ermənistanın əsil məqsədinin işğal olduğunun növbəti aşkar nümayişi" adlandırıb. O da qeyd edilib ki, "Azərbaycanın işğal edilmiş ərazilərini Ermənistana birləşdirmək çağırışları məsuliyyətsizlik və beynəlxalq birliyə, xüsusən də ATƏT Minsk Qrupunun münaqişənin danışıqlar yolu ilətənzimlənməsinə məsul həmsədrlərinə sayğısızlıq kimi dəyərləndirilməlidir".

Əlbəttə, Ermənistan baş nazirinin bəyanatını bayağı populizmə aid etmək olar ki, bu da ona yad deyil. Axı, Ermənistan dövlət başçısının belə mövqeyi özgə ərazisinin ilhaqını qəbul etməyi nəzərdə tutur, Qarabağın Azərbaycana məxsusluğu isə beynəlxalq hüquq və bütün nüfuzlu beynəlxalq təşkilatlar, aparıcı ölkələr tərəfindən təsdiqlənmiş mübahisəsiz faktdır. Aydındır ki, Ermənistan tərəfi bu yöndə konkret addım atacağı halda hüquqi xarakterli ciddi nəticələr törəyəcək. Paşinyan, faktiki olaraq, Qarabağın Ermənistana məxsusluğu haqda bəyanatı ilə Dağlıq Qarabağ münaqişəsini tənzimləmək üzrə sülh danışıqlarının davamı məsələsini sual altında qoyub. Axı, danışıqlar prosesi bu halda Azərbaycan üçün mənasız olur, işğal edilmiş əraziləri qaytarmağın yeganə yolu hərbi ssenari olaraq qalır.

Ermənistan lideri ölkənin əvvəlki başçılarından daha barışmaz mövqe sərgiləyib. Və əslində, onun sülh danışıqlarına tərəfdarlığı haqda əvvəlki bütün ifadələri, hətta Qarabağ separatçılarını danışıqlar masası arxasına əyləşdirmək istəyi ilə danışıqlar formatını dəyişdirmək səyləri yalnız sadəcə danışıqları uzatmaq və status-kvonu saxlamaq cəhdi çıxıb. Bu durumda Azərbaycanın Ermənistanı əraziləri qaytarmaq və sülhə məcbur etmək tələbilə Minsk Qrupuna və beynəlxalq birliyə müraciətində fayda var. Bakıda ekspert cəmiyyəti Ermənistan liderinin bəyanatına birmənalı reaksiya verib: Paşinyan demaqoqiyaya əl atır, onun sözləri ərazini Ermənistan siyasətinin diskursunu müəyyən edən məsələ kimi qoyan güclərə hesablanıb, o bu durumun girovuna çevrilir və onu təhlükəli potensialla dövrəyə alanların hamısına dəm tutmağa məcburdur. Politoloqlar hesab edir ki, işin gedişində ya Qarabağ, ya da hakimiyyət dilemmasının girovuna çevrildiyini anlayanda, hakimiyyətin saxlanması haqda qayğı Paşinyan üçün başlıca məsələ olub. Çünki Qarabağ problemi Ermənistanın siyasi komandası üçün hamının və hər şeyin taleyini müəyyən edən mexanizm olub. İndi Paşinyana əl verərsə, "Qarabağ klanı"nın simasında silahlı müxalıifətin nazıyla uzun müddət oynaya bilər, amma Bakının maraqlarını özünün korporativ oyununa qoşmağa nail ola bilməz. Xüsusən də Azərbaycan danışıqlar xatirinə danışıqların yolverilməz olduğu haqda İrəvana xəbərdarlıq etdiyinə görə. Bakının açıq-açığına nəticəsiz belə bir danışıqlar prosesinə qatılmağına dəyərmi? Çünki Paşinyan öz bəyanatları ilə Azərbaycan ərazilərinin ilhaqını faktiki etiraf edir, onları Ermənistana birləşdirmək niyyətini göstərir, bununla da sülh danışıqları aparmağa şans qoymur, bunu son dərəcə cüziləşdirir və Azərbaycana savaşa hazırlaşmaq arqumenti verir. Azərbaycan bu şəraitdə Paşinyanın bəyanatını Minsk Qrupu həmsədrlərinin nəzərinə çatdırmaqla uyğun reaksiya verməlidir. Paşinyanın sözləri bundan xəbər verir ki, məsələnin belə qoyuluşu ilə danışıqların mənası itir. O biri yandan, Ermənistanı sülhə, ən azı, konstruktiv danışıqlara məcbur etmək üçün müvafiq şərait yaratmaq məqsədilə danışıqlar prosesinə yanaşmanı dəyişdirməkdən ötrü fayda var. İlhaq faktını heç gizlətməyən, hətta bunu uzunmüddətli perspektivdə möhkəmlətmək niyyətini göstərən Ermənistan tərəfinin belə mövqeyi ilə danışıqlar aparmaq mənasızdır.

Qeyd edək ki, Paşinyan Ermənistanın Qarabağın Ermənistana məxsus olduğunu rəsmən bildirən ilk lideri oldu. O, öz gedişini edib və bunun daxili istehlakçıya, "Qarabağ klanı"na, müxalifətə, ya da Azərbaycana hesablandığı önəmli də deyil. Bakıda onun fikrini eşidiblər və ehtimal ki, uyğun cavab bundan sonra d aolacaq. Amma bu necə olacaq, Dağlıq Qarabağ ətrafındakı hadisələr bundan sonra necə inkişaf edəcək? Bax, məsələ bundadır…". Məhz bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, Ermənistan rəhbərliyinin indiki mövqeyi faktiki olaraq savaşı tətikləyir. Çünki İrəvan yaranmış vəziyyətdə əlavə seçim şansı da qoymur. Savaşın qarşısını ala biləcək yeganə məqam isə vasitəçi ölkələrin artıq qəti hərəkətə keçib Ermənistana təzyiq göstərmələridir. Məhz bu halda İrəvan konstruktiv mövqeyə gələ bilər. Əks halda savaş qaçılmazdır və yuxarıda qeyd olunduğu kimi, Ermənistan özü buna müvafiq şərait yaradıb.

Erməni şərhçi Aram Amatuni qeyd edir ki, Qarabağ məsələsində Paşinyanın səsləndirdikləri indiki halda qətiyyən Ermənistanın maraqlarına uyğun gəlmir və onun mövqelərini zəiflədir. Ekspert, əslində, Paşinyanın bu yanaşmasının sırf populizm və reallıqdan uzaq yanaşma üzərində qurulmasını baş nazirin aciz vəziyyətə düşməsi ilə izah edir. Çünki inqilabdan ötən 1,5 il ərzində verdiyi ən xırda vədi belə yerinə yetirməyən Paşinyan ermənilərdən 30 il sonranın "xəyalını" qurmasını istəyir: "Ölkədə 50 faiz yoxsulluq var. İqtisadiyyat çökür, emiqrasiya sürətlə davam edir, çoxsaylı sosial, psixoloji problemlər mövcuddur, işsizlik kütləvi hal alıb və sair. Bütün bunların fonunda Paşinyanın açıqladığı "meqalayihələr" gülməlidir. Bunu erməni cəmiyyəti və baş nazirin özü də başa düşür. Ona görə diqqəti həm də Qarabağ məsələsi ilə yayındırır. Amma onun münaqişə ilə bağlı açıqlamaları indiki halda Azərbaycanın əlini gücləndirdiyi halda Ermənistanın əleyhinə işləyir. Belə vəziyyətdə baş nazirin yanaşmasına görə savaşın başlanması isə Ermənistan üçün qətiyyən əlverişli deyil. Nikol 30 il sonra dünyanın 20 ən güclü ordusundan birini yaratmağı vəd edir, halbuki, bu gün Ermənistan ordusunda nizamsızlıq, intihar halları, qanunsuz münasibətlər kimi dəhşətli hadisələr yaşanır. Korrupsiya, səriştəsiz komandirlər, qanunsuz münasibətlər ordunun ən böyük bəlası olaraq hələ də qalmaqdadır. Məhz bu durumda Qarabağ savaşının yenilənməsi yeni aprel faciələrinə gətirib çıxar bilər". Bütün bunlar bir daha təsdiq edir ki, Paşinyanın sərsəmləmələri Ermənistana çox baha başa gələcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qurban bayramının qurbanlıqları - daha uşaq bağçalarının yolunda da kəsməyin axı...

**Qurban bayramı günlərində heyvanların kəsimi və satışı adi günlərlə müqayisədə kütləvi şəkildə həyata keçirilir. Danılmaz faktdır ki, bu proses bir çox hallarda kəsim üçün nəzərdə tutulan yerlərlə yanaşı, kənar ərazilərdə də qeydə alınır.**

*"Qanunsuz olaraq küçə və yol kənarlarında antisanitar şəraitdə heyvan kəsimi və satışı ilə məşğul olmaq..."*

Bu da təhlükəli xəstəliklərin qarşısının alınmasına, qanunvericiliklə müəyyən edilmiş qaydada ət və ət məhsullarının baytarlıq-sanitariya ekspertizasının aparılmasına, eyni zamanda, nəqliyyatın və piyadaların rahat hərəkətinə maneələr yaradır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən bayram günlərində ölkə ərazisində qurbanlıq heyvanların kəsiminin baytarlıq-sanitariya və gigiyena normalarına cavab verən stasionar və çadır tipli heyvan kəsimi məntəqələrində aparılması həyata keçiriləcək. Məlumat üçün bildirək ki, bayram günlərində 44 stasionar heyvan kəsimi məntəqəsi və 30 çadır tipli kəsim yeri lazımi avadanlıqlarla təmin edilərək vətəndaşların ixtiyarına verilib.

Qeyd etdiyimiz kimi, bəzi hallarda heyvan kəsimi bunun üçün ayrılan yerlərlə yanaşı, kənar ərazilərdə də baş tutur. Hətta bu proses bağçalara gedən yolda da həyata keçirilir. Bağçaya gedən uşaq heyvanın necə kəsildiyini əyani olaraq görür. İstər-istəməz, bu hal uşağın psixologiyasına mənfi təsir edir.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Aysel Fərziyeva bildirdi ki, 44 stasionar məntəqə bu günədək mövcud olan və AQTA-nın tələblərinə uyğun qeydiyyatdan keçmiş məntəqələrdir: "Həmin məntəqələrdə qiymətlər sahibkarla vətəndaş arasında olan tələblərə əsasən müəyyənləşir. Çadır tipli kəsim məntəqələri isə bizim tərəfimizdən təchiz edilib və agentliyin mütəxəssislərinin metodiki tövsiyəsi əsasında hazırlanıb. Orada göstəriləcək bütün xidmətlər yerli icra strukturları tərəfindən təmin ediləcək. Agentlik yalnız nəzarət və tənzimləmə funksiyasını həyata keçirəcək. Bayram günlərində bu məntəqələrin ətrafında bizim səyyar baytarlıq laboratoriyalarımız fəaliyyət göstərəcək.

***Aysel Fərziyeva:** "44 stasionar ət kəsimi məntəqəsi bu günədək mövcud olan və AQTA-nın tələblərinə uyğun qeydiyyatdan keçmiş məntəqələrdir"*



Həmin laboratoriyalarda xidmətlər ödənişsiz olacaq. Şəxsi istifadəsi üçün öz həyətyanı sahəsində qurban kəsən şəxslərə heyvanı kəsməzdən əvvəl baytar müayinəsindən keçirmələri tövsiyə olunur. Qanunsuz olaraq küçə və yol kənarlarında antisanitar şəraitdə heyvan kəsimi və satışı ilə məşğul olmaq isə qanunla qadağandır və bu kimi halların qarşısını almaq üçün aidiyyəti icra orqanları ilə birlikdə qanunvericilik çərçivəsində tədbirlər həyata keçiriləcək".

***Günel CƏLİLOVA***

# Bakının yol kənarı ağacları vaxtında budansa... neçə-neçə fəlakətdən qurtara bilərik

**Bakıda yol kənarında və binaların, eləcə də müxtəlif müəssisələrin həyətində yaşı 50-ni, 60-ı keçmiş qollu-budaqlı, şaxəli ağaclara sıx-sıx rast gəlirik. Çox təəssüf ki, bu ağaclar vaxtilə qayğı içində bəslənilsə də, son zamanlar diqqətdən kənarda qalıb. Onlar vaxtlı-vaxtında budanmır, bu da insanlar üçün ciddi problemlər yaradır.**

*"Rəsmi müraciət daxil olmazsa, hansısa ağacı budaya bilmərik"*

Uzunmüddətli qar-yağış yağarkən, aramsız şiddətli küləklər əsərkən bu ağaclar gerçək fəsad ünvanına çevrilir. Vaxtaşırı budanmayan ağaclar aşaraq məhlədaxili yolları kəsir, müəssisələrin həyətində gediş-gəlişə əngəl törədir. Bu azmış kimi, ağaclar sınaraq avtomobillərin üzərinə aşır, bəzən insan sağlamlığına da ciddi zərər vururlar. Budanmayan və budaqları ağırlıqdan çürüyən ağacların budaqlarının qırılması, yaxud onların köklərindən qopması nəticəsində xəsarət alan insanlar daha çox olur.

Ötən ay Şəki Xan Sarayında 500 yaşı olan çinar ağaclarından birinin budağının qırılaraq düşməsi və bunun nəticəsində də insanların xəsarət alması aidiyyəti qurumlar üçün bir xəbədarlıq olsa da, onlar bu məsələyə elə də əhəmiyyət vermirlər.

Bakı Şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Bitkilərin mühafizəsi şöbəsinin rəisi Orxan Məmmədov "Bakı-Xəbər"ə bildirdi ki, qurum özbaşına ağaclara müdaxilə etmir. O.Məmmədovun sözlərinə görə, yerli icra hakimiyyətləri və bələdiyyələr budanmaya ehtiyacı olan ağaclarla bağlı Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Bitkilərin mühafizəsi şöbəsinə rəsmi müraciət etməlidirlər. Onun sözlərinə görə, ağacların budanması üçün indiyədək onlara edilən bütün müraciətlərə operativ reaksiya veriblər. "Ağaclarla bağlı baş verə biləcək hadisələrin qarşısının alınması üçün bizim quruma rəsmi müraciətin edilməsi vacibdir. Yerli icra hakimiyyəti orqanları və bələdiyyələr ərazilərindəki budanmaya ehtiyacı olan ağaclarla bağlı bizə rəsmi məktubla müraciət etməlidirlər.

***Orxan Məmmədov:** "Yerli icra hakimiyyəti orqanları və bələdiyyələr ərazilərindəki budanmaya ehtiyacı olan ağaclarla bağlı bizə rəsmi məktubla müraciət etməlidirlər"*



Bizə rəsmi müraciət daxil olmazsa, hansısa ağacı budaya bilmərik. Bizim quruma bu barədə müraciət daxil olarkən araşdırıb öyrənirik ki, həqiqətən də o ağacların budanmaya ehtiyacı var, yoxsa yox.

Mütəxəssis yoxlayaraq bilir ki, bu ağac budanmalıdır, başqa bir ağac cavanlaşdırılmalıdır, yaxud üzərində başqa əməliyyat aparılmalıdır. Aqrotexniki qaydada buna mütəxəssis baxır və yerində qərar qəbul edir" - deyə O.Məmmədov bildirdi.

***İradə SARIYEVA***

**Redaksiyamıza müraciət edən Abşeron rayonu, Masazır qəsəbəsinin sakini Şahəddin Mehdiyev bildirib ki, bir neçə gündür qəsəbə zibilin içində itib-batır. Şikayətçinin sözlərinə görə, 95 min əhalisi olan qəsəbənin mərkəzi küçələrinin kənarlarına nəzər salınsa, bu acınacaqlı mənzərənin şahidi olarsınız:**

# Masazır kəndi zibilin içində itib-batır, bələdiyyə hara baxır...



***Şahəddin Mehdiyev:*** *"Qəsəbə sanki ət kombinatını xatırladır"*

***Bələdiyyə sədri:*** *"Təkcə "Çıraqlı" deyilən məhəlləmizə hər gün 3 min mal-heyvan girir, onlardan minə yaxını bir gündə kəsilir"*

***Elşən Əliyev:*** *"Qəssablarla bələdiyyə arasında yaranan ziddiyyətdən sadə əhali əziyyət çəkməməlidir"*

"Qəsəbə sanki ət kombinatını xatırladır, kəsilən iri və xırda buynuzlu mal-qaranın tullanmalı olan hissələri qəsəbə küçələrini "bəzəyir", üfunəti də bir tərəfdən. Biz vəziyyətin düzəlməsi üçün Masazır Bələdiyyəsinə müraciət etdik. Oradan bildirdilər ki, texnika yoxdur, çatdırıb zibili apara bilmirlər. İndi biz nə etməliyik, buna görə zibilin içində batmalıyıq? Çox xahiş edirəm, bu məsələyə əncam çəkilməsinə kömək edəsiniz ki, problemimizdən əlaqədar qurumlar agah olsunlar".

**Yaranmış vəziyyətə aydınlıq gətirmək üçün Masazır Bələdiyyəsinin sədri Siyənfər Əliyevlə əlaqə saxladıq.** O, "Bakı-Xəbər"ə açıqlamasında məlumatı təsdiqlədi ki, qəsəbədə bir neçə gün zibillərin daşınması ilə bağlı problem olub: "Bəli, belə problem var. Bütün sakinlər həmin mənzərənin şəklini çəkib "WhatsApp"a qoyur, bəziləri sosial şəbəkələrdə paylaşırlar. Bir nəfər gəlib demir ki, problem nədən yaranıb, bəlkə kömək edə bilərik. Bilirsiniz ki, zibili hər maşınla daşımaq olmur. Bunun üçün xüsusi texnika nəzərdə tutulub. Bizdə həmin maşından dörd ədəd var. Bu texnika mal-qara tullantılarını daşımaq üçün nəzərdə tutulmayıb axı. Bizim qəsəbədə çoxlu sayda Laçından olan məcburi köçkün yaşayır. Onların da başlıca məşğuliyyəti qəssablıqdır. Sizə bir faktı deyim. Təkcə "Çıraqlı" deyilən məhəlləmizə hər gün 3 min mal-heyvan girir, onlardan minə yaxını bir gündə kəsilib şəhərin müxtəlif iaşə obyektlərinə göndərilir. Siz təsəvvür edin ki, həmin mal-qaranın nə qədər tullantısı çıxır. Axı biz sakinlərə xidmət edirik, ət kombinatına yox. Bizim texnikalar bu ağır yükləri daşıyanda tez-tez sıradan çıxırlar. Maşınlarımızdan ikisi xarab olmuşdu. Ona görə belə vəziyyət yarandı. Mən məcbur olub onların ehtiyat hissəsini Türkiyədən aldırdım. Bu gün məcbur olub başqa yerlərdən kirayə maşınlar cəlb etdim və qəsəbənin bütün zibilləri daşındı. Ancaq hesab edirəm ki, əlaqədar qurumlar bu məsələyə əncam çəkməlidirlər. Ət kəsimi ilə bağlı ortaya çıxan zibilləri daşımağa çox çətinlik çəkirik. Yaxşı olar ki, həmin fəaliyyətlə məşğul olub qazanc götürənlər zibillərinin də daşınması ilə bağlı bizə dəstək olsunlar. Bunun formalarını müzakirə etmək olar. Axı biz evdən çıxan zibilin daşınmasına məsuluq, mal-qara hissələrinə yox. Açığını deyim ki, əlimizdə olan texnika ilə biz işi çatdıra bilmirik. Bunun xarab olması da baş verəndə belə xoşagəlməz vəziyyət yaranır".

Ekspert Elşən Əliyev isə hesab edir ki, qəssablarla bələdiyyə arasında yaranan ziddiyyətdən sadə əhali əziyyət çəkməməlidir: "Əgər, deyilən kimi, açınacaqlı vəziyyət yaranıbsa, bələdiyyə buna zibili daşımamaqla reaksiya verməməlidir. Öz blankı ilə əlaqədar qurumları qəsəbədəki qəssabların yaratdığı problem haqda məlumatlandırmalıdır. Bələdiyyənin gəlir mənbələri var, zəhmət çəksinlər yeni texnika alsınlar. Yəni bu problem heç bir halda vətəndaşlara aid deyil. Vətəndaş təmiz şəhər istəyir. Zibilinin vaxtlı-vaxtında tullanmasını görməyi arzulayır".

***Məhəmmədəli QƏRİBLİ***

**Son zamanlar Azərbaycan avtomobil yollarında qəzaların sayı kifayət qədər artıb. Bunu açıqlanan statistik rəqəmlər də təsdiq edir. Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, Azərbaycanda qəzaların sayı düz 2 dəfə artıb. Belə ki, 2019-cu ilin yanvar-iyun aylarında ölkənin avtomobil yollarında 822 yol-nəqliyyat hadisəsi baş verib.**

# Yol qəzalarının və qəza qurbanlarının sayında yenidən artımlar görünməyə başlayıb



***İlqar Hüseynli:*** *"Yay aylarında avtomobil qəzaları daha çox istirahət zonalarının ətrafında baş verir"*

Bu ilin ilk 6 ayı ərzində qeydə alınan yol qəzalarının sayı ötən ilin müvafiq dövri ilə müqayisədə 2 dəfə, zərərçəkənlərin sayı isə 1,2 faiz çoxdur. Bu ilin yanvar-iyun aylarında baş verən yol qəzalarında zərərçəkənlərin sayı 1087 nəfər olub. Onlardan 342-si həlak olub, 745-i isə müxtəlif bədən xəsarətləri alıb.

Hadisələrin 46,3 faizi gündüz, 36,5 faizi gecə, 17,2 faizi isə toran vaxtı baş verib, 29,3 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Qeyd edək ki, yol-nəqliyyat hadisələrinin 89,7 faizi yaşayış məntəqələrində baş verib, bu qəzalar nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 0,4 faiz azalaraq 249 nəfər, yaralananların sayı isə 0,7 faiz azalaraq 723 nəfər olub.

Yol-qəza hadisələrinin sayının azalması yönündə görülən işlərə baxmayaraq, bu sahədə vəziyyət acınacaqlı olaraq qalır.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, isti havalarda yol-nəqliyyat hadisələrinin artmasına səbəb bəzi nəqliyyat vasitələrinin standartlara uyğun olmamasıdır: "Bəzi avtomobillərdə kondisionerlərin olmaması, isti nəticəsində yaranan yuxu, yorğunluq, tələskənlik qəzalara səbəb olur. Yorğun, yuxulu halda yola çıxmaq olmaz. Bütün polis postlarında sürücülərin istirahət etməsi üçün şərait yaradılıb. Yorğunluq hiss edilən zaman bu postlara yaxınlaşaraq su içmək, dincəlmək mümkündür. Bəzi avtomobilləri standartlara uyğun olmayan sürücülər polis saxladığı zaman bunu imkansızlıqla əlaqələndirirlər. Unudurlar ki, belə avtomobillərlə yola çıxmaq həm onların özü üçün, həm də ətrafdakılar üçün təhlükəlidir".

*"İsti havalarda yol-nəqliyyat hadisələrinin artmasına səbəb bəzi nəqliyyat vasitələrinin standartlara uyğun olmamasıdır"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, yay aylarında avtomobil qəzaları daha çox istirahət zonalarının ətrafında baş verir: "Yay aylarında insanlar daha çox istirahət mərkəzlərinə gedirlər.

**Bu da avtomagistralda intensivliyə səbəb olur. İntensivlik olan yollarda isə hər zaman qəzalar baş verir. Onu da əlavə edim ki, yay aylarında qəzaların artmasına digər bir səbəb sürücülərin sərxoş halda avtomobili idarə etməsidir. İstirahət mərkəzinə gələn və ya oradan çıxan sürücülərin əhvalı yaxşı olur, içkili olurlar. Bu da qəzaların baş verməsinə səbəb ola bilər".**

***Günel CƏLİLOVA***

**Dünya Universitetləri Reytinqi Mərkəzi ("Center for World University Rankings") 2019-2020-ci tədris ili üçün dünyanın ən yaxşı universitetlərinin siyahısını açıqlayıb. 2000 universitetin yer aldığı siyahıda ilk onluqda müvafiq olaraq Harvard Universiteti, Massaçusets Texnologiya Universiteti, Stenford Universiteti (ABŞ), Kembric Universiteti, Oksford Universiteti (Böyük Britaniya), Kolumbiya Universiteti, Prinston Universiteti, Berkli Kaliforniya Universiteti, Pensilvaniya Universiteti, Çikaqo Universiteti (ABŞ) qərarlaşıb.**

# 2000 dünya universitetinin sırasına düşən bir universitetimiz olmadı...

## *Kamran Əsədov: "Təəssüflər olsun ki, hazırda ölkənin 53 ali təhsil müəssisəsində təhsil alan tələbələrin yalnız 42 faizi işlə təmin olunur, bu da çox aşağı səviyyədir"*

Qeyd edək ki, mərkəzin siyahısına universitetlər təhsil səviyyəsi, məzunların işlə təmin olunma faizi, müəllim heyətinin keyfiyyəti və universitetlərin elmi fəaliyyət göstəricilərinə görə daxil olurlar.

Xatırladaq ki, dünyanın 99 ölkəsinə aid 20 min ali təhsil ocağı arasından seçilmiş 2000 universitetin yer aldığı siyahıda Azərbaycanda olan universitetlərdən heç biri yer almayıb. Maraqlıdır, dünyanın ən yaxşı universitetləri siyahısına Azərbaycan ali təhsil müəssisələrinin adı niyə salınmayıb?

**Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hər il dünya universitetləri məzunlarının işlə təmin olunması üzrə dünya reytinqi (QS Graduate Employability Ranking) dərc edilir:** "Ümumilikdə, reytinqdə dünyanın müxtəlif ölkələrindən 300 ali təhsil ocağı yer alır. Reytinqin tərtibi zamanı bu göstəricilər nəzərə alınır: işəgötürənlər arasında nüfuzu, onlarla əməkdaşlıq, məzunların uğurlu olması, işəgötürənlərin kampusda iştirakı və işlə təmin edilməsi. Qeyd edim ki, hər il açıqlanan siyahıda Azərbaycanda fəaliyyət göstərən 53 ali təhsil müəssisəsinin heç birinin adı yoxdur. Reytinqdə məzunlarının işlə təmin olunması göstəricisinə görə ən yaxşı 5 universitet isə bunlardır: Stenford Universiteti və Massaçusets Texnologiya İnstitutu (ABŞ), Tsinhua Universiteti (Çin), Sidney Universiteti (Avstraliya) və Kembric Universiteti (Böyük Britaniya).



## *"Bütün ali məktəblər Boloniya prosesinə sözdə fəal şəkildə qoşulduqlarını bəyan etsələr də..."*

2005-ci ildən Azərbaycanın da qoşulduğu Boloniya sisteminə görə, məzunların işlə təminatı təhsil prosesinin əsas tələblərindən biridir. Həmin tələblərə görə, hər bir universitet 3 mərhələdə məzunlarının işlə təminatını müntəzəm şəkildə izləməlidir. Birinci mərhələ təhsildən sonrakı ilk ili nəzərdə tutur və bu müddət ərzində məzunların 95 faizə qədərinin öz ixtisası üzrə işlə təmin olunması ən ideal nəticə sayılır. İkinci mərhələ təhsildən sonrakı 3, sonuncu mərhələ isə 5 ildə məzunların peşə fəaliyyətinin izlənməsini nəzərdə tutur. Təhsildən sonrakı 5 ildə məzunların 3 faizə qədəri öz peşəsi üzrə işlə təmin oluna bilmirsə, universitet özünün mütəxəssis hazırlığı siyasətinə yenidən baxmalı və istiqaməti əmək bazarında ehtiyac duyulan ixtisaslara doğru dəyişməlidir.

Təəssüflər olsun ki, hazırda ölkənin 53 ali təhsil müəssisəsində təhsil alan tələbələrin yalnız 42 faizi işlə təmin olunur, bu da çox aşağı səviyyədir. Hesab edirəm ki, bütün ali məktəblər Boloniya prosesinə sözdə fəal şəkildə qoşulduqlarını bəyan etsələr də, onların istifadə etdikləri proqramlarda sovet dövründən bu günə qədər çox kiçik dəyişikliklər öz əksini tapıb. Ona görə də ali məktəb məzunlarının bilik səviyyəsi günün tələblərinə cavab vermir, kadr körpüsü sürətlə qocalır, onları əvəz etmək üçün Avropa təhsil standartlarını ölkəmizdə bərqərar etməyə qadir olan gənc kadrlar isə kifayət qədər deyil. Öz istəkləri ilə sevib seçdikləri ixtisaslarda təhsilini başa vuran gənclərin bir qismi 220-250 manat əməkhaqqı müqabilində muzey işçisi, yaxud arxeoloq işləmək istəmir. Ona görə də yerli universitetlərin bu məsələdə reytinqi çox zəifdir, hazırladıqları kadrlar əmək bazarının tələblərinə uyğun deyil.

Bir məsələni də qeyd etmək istəyirəm ki, yüksək ixtisaslı, yaxşı universitetlərdə təhsil almış gənclər iş tapmaqla bağlı ciddi problem yaşamırlar. Amma nəzərə alaq ki, bu gün ali məktəblərdə təhsil alan gənclərin sayı həddən artıq çoxdur və bu məzunların, qeyd olunduğu kimi, çox təəssüf ki, heç də hamısı işlə təmin edilə bilmir. Bu onunla bağlıdır ki, Azərbaycanda ixtisasların iş yerlərinin sayına uyğunlaşdırılması tətbiq olunmur. Məzunların sayı iş yerlərinin sayından çox olduğu üçün, gənclər iş tapmaqda çətinlik çəkirlər. Digər tərəfdən, ölkəmizdə problem təhsilin keyfiyyəti ilə bağlıdır. Əksər yerli ali məktəbdə təhsilin keyfiyyətinin ürəkaçan olmaması orada oxuyan gənclərin məzun olduqdan sonra qısa zamanda işlə təmin olunmasına mane olur. Üçüncü tərəfdən isə, biznes sahibləri adətən daha təcrübəli şəxslərə üstünlük verirlər ki, bunlar da, adətən, 25 yaşdan yuxarı şəxslər olurlar. O baxımdan bu, yeni məzun olan gənclərin işlə təmin olunmasında müəyyən problemlər yaradır.

Etiraf edək ki, bu gün ali təhsil müəssisələrinə plan yerləri müəyyənləşəndə əmək bazarının tələbləri, təklifləri nəzərə alınmır".

K.Əsədov sözlərinə görə, təhsilin keyfiyyətinin artırılması, universitetlərdə daha yüksək keyfiyyətli məzunların hazırlanması imkan verəcək ki, onlar universiteti bitirdikdən sonra qısa zamanda iş tapa bilsinlər. Ən əhəmiyyətli məqamlardan biri də təhsil alan zaman tələbələrin ixtisasları ilə bağlı praktikadan keçmələridir: "Halbuki, bu olduqca önəmlidir. Çox təəssüf ki, Azərbaycanda təhsil müəssisələrinin əksəriyyətində praktikaya ciddi yanaşılmır. Təhsil alan gənclərin praktika keçmələri onların universiteti bitirənədək peşəkarlaşmasına imkan vermir. O baxımdan praktika müddətinin genişləndirilməsinə və ciddi şəkildə tətbiqinə ehtiyac var ki, gənclər universiteti bitirəndən sonra işlə təmin oluna bilsinlər. Düşünürəm ki, ali təhsil müəssisəsində ciddi islahatlar aparmaqla bu problemlər həll oluna bilər".

***Günel CƏLİLOVA***

# Mərkəzi Bankın gəlirlərində maraqlı kökləri olan 100 milyon manat...

**Mərkəzi Bankın valyuta ehtiyatları artmaqda davam edir. Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov bu günlərdə Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə çıxışı zamanı deyib ki, cari ildə valyuta ehtiyatları 330 milyon dollardan çox artıb:**

*"Mərkəzi Bank müxtəlif valyutalarda öz ehtiyatlarını saxlaya bilər, həmin valyutaların məzənnəsinin dəyişməsi adıçəkilən bankın valyuta ehtiyatlarının həcminin dəyişməsinə səbəb ola bilər"*

## **Elşad Məmmədov:** *"Pul vəsaitlərinin banklarda deyil, iqtisadiyyatda dövr etməsi milli iqtisadiyyata daha faydalıdır"*




"Amma diqqətinizi ona cəlb etmək istəyirəm ki, valyuta ehtiyatlarının idarə olunmasının effektivliyinin artırılması olduqca mühüm məsələdir. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu biz altı ayda xarici idarəetmədən almışıq. Baxmayaraq ki, beynəlxalq maliyyə bazarlarında vəziyyət kifayət qədər mürəkkəbdir və faiz dərəcələri aşağıdır. Biz ili 3,2 faiz gəlirlə başa vurmağı düşünürük". Valyuta ehtiyatlarının idarə olunmasında effektivliyin artırılması üçün təxminən 100 milyon dollardan çoxunun xarici idarəetmədən alınmasına münasibət bildirən **Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru, iqtisadçı Elşad Məmmədov bildirdi ki, mütəmadi olaraq Mərkəzi Bankı valyuta ehtiyatlarının artması və azalması barəsində məlumatlar ictimaiyyətə çatdırılır:** "Sadəcə, bu bəyanatlarda valyuta ehtiyatlarının artımı və ya azalmasının strukturu barədə rəsmi məlumat yayılmır. Mərkəzi Bank müxtəlif valyutalarda öz ehtiyatlarını saxlaya bilər. Həmin valyutaların məzənnəsinin dəyişməsi Mərkəzi Bankın valyuta ehtiyatlarının həcminin dəyişməsinə səbəb ola bilər". Həmsöhbətəmiz onu da vurğladı ki, Dövlət Neft Fondu müəyyən transfertlər həyata keçirir. Hansısa mərhələdə Mərkəzi Banka pul köçürə bilər. Bu da bankın aktivlərinə təsir edə bilər. İqtisadçının sözlərinə görə, hazırda devalvasiya təhlükəsi yoxdur. Bu səbəbdən də Mərkəzi Bank dollar kütləsini bazardan yığa bilər: "Məlumat üçün bildirim ki, bu yaxınlarda Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxışı zamanı bildirmişdi ki, Azərbaycanda revalvasiya təzyiqləri var. Yəni manatın ucuzlaşması deyil, möhkəmlənməsi təzyiqi var.

Bu səbəbdən də Mərkəzi Bank dolları bazardan yığıb, manat intervensiyasını həyata keçirməyi düşünür. İstənilən halda, həm Mərkəzi Bankın, həm də Neft Fondunun ehtiyatlarının həddən artıq şişirdilməsi iqtisadiyyat üçün məqsədəuyğun hesab oluna bilməz. Pul vəsaitlərinin banklarda deyil, iqtisadiyyatda dövr etməsi milli iqtisadiyyata daha faydalıdır".

***Günel CƏLİLOVA***

# Azərbaycanın daxili marşrutlarında turistlər niyə sığorta olunmur...

**İstirahəti mənalı və maraqlı keçirmək hər birimizin arzusudur. Ancaq səyahət zamanı təhlükəsizliyi də düşünmək önəmlidir. Fərqli şəhər, başqa iqlim şəraiti, fərqli hava... Qaçılmaz qəzalar hər zaman insanı yaxalaya bilər.**

*"Həm daxili turistlər, həm də xaricə səyahət edən turistlər müxtəlif fors-major hallar və təhlükələrlə qarşılaşdıqları üçün turizm şirkətləri səyahət etmək istəyənləri məcburi sığortalamalıdır"*

## **Elçin Rüstəmov:** *"Azərbaycanda ölkədaxili səyahətə gedənlər özlərini sığortalamır"*




Heç kim başına gələcəklərdən sığortalanmasa da, turizm və sığorta şirkətləri səyahətə gedənlərə səfər sığortasını təklif edir. Təəssüflər olsun ki, insanlar cüzi məbləği ödəməmək üçün sığortadan imtina edirlər. Müşahidələr göstərir ki, ölkədaxili səfər sığortasına maraq kəskin azalıb. Üstəlik, 1-2 manat qiyməti olan bu səyahət sığortasını heç şirkətlərin özləri təklif etməkdə maraqlı deyil. Baxmayaraq ki, il ərzində təxminən 1 milyon insan regionlara səfər edərək istirahət edir. Mütəxəssislər, xarici turlarda olduğu kimi, daxili səfərlərdə də turistlərin sığortalanmasını vacib hesab edir Araşdırmalar göstərir ki,daxili səfərlər zamanı yerli turistlərin sığortalanması əksər hallarda həyata keçirilmir.Baxmayaraq ki,aktiv istirahət edənlər, ovçuluq, ekstrim səyahətə üstünlük verənlərin xəsarət alma ehtimalları yüksəkdir. **Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmovun sözlərinə görə, Azərbaycanda ölkədaxili səyahətə gedənlər özlərini sığortalamır.** Bu tendensiya uzun müddətdir ki, davam edir. Sığorta agentlikləri daxili səfərlər zamanı səfər sığorta paketləri təqdim etməkdə elə də maraqlı olmurlar: "Xarici turlarda isə vəziyyət fərqlidir. Avropa ölkələrinə səyahət edən turistlər birmənalı olaraq sığortalanır. Bu həmin ölkələr tərəfindən turistlərin qarşısına qoyulan birbaşa tələbdir. Ümumiyyətlə, həm daxili turistlər, həm də xaricə səyahət edən turistlər müxtəlif fors-major hallar və təhlükələrlə qarşılaşa bilər. Buna baxmayaraq, ölkənin regionlarına səfər edən turistlər arasında sığortalananların sayı olduqca azdır.

Turistlər səfər zamanı onların səhhətinə, əşyalarına vurulan hər hansı ziyanla və yaxud digər şəxslərə eytiyyatsızlıqdan vura bildikləri zərərlə uzlaşdiyi zaman həm özlərinə, həm də turizm agentliyinə, nəqliyyat şirkətinə, yerləşdiyi otelə problemlər yarada bilər.

Bu risqlərin aradan qaldırılması üçün regionlara səfərə gedənlər belə sığorta olunmalıdır".

***Günel CƏLİLOVA***

# Bəzi azərbaycanlı qızlarda inanılmaz "Adel" sindromu - 15-20 yaş özündən böyük kişilər...

**Bəzən deyirlər ki, sevgi yaşa baxmır. İnsan istənilən yaşda sevə və özündən yaşca böyük, yaxud kiçik insana aşiq ola bilər. Çoxlarımız bunu təbii qəbul etməyə çalışırıq. Nədənsə, bu barədə düşünəndə reallıqlara göz yumub hisslərimizin diqtəsinə uyuruq.**



*"Özündən qat-qat yaşlı kişiyə o qızlar meyl göstərir ki..."*

## *Könül Vaqifqızı: "Belə qızlar adətən uşaqlıqda öz valideynlərindən diqqət-qayğı görməyənlər, yaxınlarının laqeyd münasibətindən, soyuqluğundan əziyyət çəkənlərdir"*

Müasir Azərbaycan qızlarının sevgiyə münasibəti bir qədər fərqlidir. Əvvəlki dövrlərlə müqayisədə indi qızlar daha çox özlərindən 10-20 yaş böyük kişilərlə sevgi yaşamağa, evlənməyə can atırlar. Vaxtilə isə qızlar daha çox yaşıdları, yaxud da özlərindən uzaqbaşı 5-6 yaş böyük insanla sevgi yaşamağa, ailə həyatı qurmağa meyl göstərirdilər. Yeri gəlmişkən, Sovet dövründə bu məsələyə xüsusi diqqət yetirilirdi. Hətta keçən əsrin əvvəllərində, ondan qabaqkı dövrlərdə qızların özlərindən 10-15, 20 yaş böyük kişiyə ərə verilməsi ciddi tənqid edilirdi. Elə dahi Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" filmində də gənc qızın atası yaşda kişiyə ərə verilməsi şiddətlə tənqid olunub. Üzeyir bəyin bu əsəri yazmasının üstündən bəlkə də 100 ildən çox vaxt keçib. Bu gün ata-analar qızlarını zorla özlərindən yaşlı kişiyə verməyə elə də meyl göstərməsələr də, qızların özləri bu seçimi etməyə cəhdlər göstərirlər.

Statistikaya görə, Azərbaycanda özündən 10-15 yaş böyük kişilərə aşiq olan qadınların sayı artıb. Bu faktın psixoloqların araşdırmaları zamanı üzə çıxdığı məlum olub. Psixoloqlar çoxsaylı pasiyentlə söhbətlər zamanı bu halın aşkar olunduğunu vurğulayırlar.

Psixoloq Aytən Ələkbərovanın sözlərinə görə, son dövrlər bu vəziyyətə görə yaşanan problemlərlə müraciət edən xanımların sayında artım var: "20 yaşlı qızların özlərindən 10 yaş böyük kişilərə aşiq olması onlarda ciddi ürək xəstəliklərinə, vegetativ nevroz və sağlam düşüncənin pozulmasına gətirib çıxara bilir. Bəzən bu, bağlılıq hissi olur. Lakin əgər gün ərzində fikirlərini toplaya bilmirlərsə, hər yerdə o şəxsi görürlərsə, bu artıq aşiq olduğuna işarədir. Ümumiyyətlə, qadınların aşiq olma yaşları bölünür. 17, 18, 20 yaşlarında qızlarda buna daha çox rast gəlinir.

Statistikaya görə, qadınların bu yaşlarda aşiq olması "Adel" sindromuna gətirib çıxarır. 40-45 yaş qrupları arasında kiməsə aşiq olan qadınlarda isə bu sindrom özünü daha güclü göstərir".

Qeyd edək ki, "Adel" sindromu kimi tarixə düşən bu termin böyük ABŞ yazıçısı Viktor Hüqonun qızı Adelin adı ilə bağlıdır. Adel qeyri-adi sevgisi ilə tarixə düşmüş qadınlardan biridir.

**Psixoloq Könül Vaqifqızı "Bakı-Xəbər"ə bildirdi ki, bu gün 17, 18, 19, 20 yaşlı qızların böyük əksəriyyəti həqiqətən də özlərindən 10-15, 20 yaş böyük kişilərə aşiq olur.** Bu, bir tərəfdən, qızların psixoloji durumu ilə bağlıdır. Başqa bir tərəfdən isə onlar yaşayışlarını, maddi rifahlarını təmin edə biləcək kişinin məhz özlərindən 15-20 yaş böyük olacağı qənaətindədirlər. "Statistikaya baxsaq görərik ki, Azərbaycan qızlarının xeyli bir qismi əsasən özlərindən yaşlı kişilərlə ünsiyyət qurmağa meyl göstərir. Bəzən bu münasibətlər ciddi sevgi üzərində qurulur. Qızlar yaşlı kişiləri sevirlər. Bilirsiniz, özündən qat-qat yaşlı kişiyə o qızlar meyl göstərir ki, onların özgüvəni çox zəifdir, ailədə özünə müdafiəçi, həmfikir tapa bilmir. Belə qızlar adətən uşaqlıqda öz valideynlərindən diqqət-qayğı görməyənlər, yaxınlarının laqeyd münasibətindən, soyuqluğundan əziyyət çəkənlərdir. Onlar daim sığınacaqları, güvənə biləcəkləri insan axtarırlar. Təbii ki, bu onların yaşıdı, yaxud da özlərindən 3-5 yaş böyük oğlanlar ola bilməz, bu halda, qızlar özlərindən 15-20 yaş böyük kişiyə maraq göstərirlər. Siz fikir versəniz görərsiniz ki, 17, 18, 20 yaşlı qızlar hətta evli, oğul-uşaqlı kişiləri də sevirlər. Onlar bu kişilərə, bir növ, maddi və psixoloji problemlərdən xilas vasitəsi kimi baxırlar. Gənc qızların çoxu özündən 20, 30, ya böyük kişiyə dəlicəsinə aşiq olur və bu da əksər hallarda qızlara faciə yaşadır. Bu həm bizdə, həm də dünya praktikasında var. Amma bu sevgilərin çox böyük hissəsi iflasa uğrayır".

Bu gün qızların çoxunun öz yaşıdları olan oğlanlarla ünsiyyət probleminin olduğunu da deyən psixoloq hesab edir ki, müasir qızlar oğlanlarla müqayisədə əqli, psixoloji və bioloji cəhətdən daha çevik inkişaf etdikləri üçün, həm də daha çox bilgiyə, informasiyaya malikdirlər. "17-18 yaşlı qızlar var ki, onlar özlərini kifayət qədər yetişmiş hesab edirlər. Söhbət edəndə görürsən ki, bunlar həqiqətən də çox bilirlər və onların maraq dünyası tamamilə fərqlidir. Özündən yaşlı kişiyə aşiq olan gənc qızların bir qisminin psixoloji durumu elə də yerində olmur.

Onlar arasında nevrozlar, "Adel" sindromundan əziyyət çəkənlər də var. Yadınızdadırsa, bu yaxınlarda bir neçə gənc qız özlərindən yaşca böyük, ailəli-uşaqlı kişilərə qoşulub qaçmışdı" - deyə ekspert vurğuladı.

***İradə SARIYEVA***

# Yapon yazarın "Duman, sis içində Ay" novellalar kitabı Şükür Şənolun tərcüməsində Azərbaycan dilində...

**Son dövrlər Azərbaycanda bədii tərcümə sahəsində xeyli iş görülüb. Bədii tərcüməçilər xüsusən də yapon ədəbiyyatından olduqca maraqlı əsərləri ana dilimizə çevirirlər. Bizim üçün zaman-zaman uzaq olan və əlimizin çatmadığı yapon şair və yazıçılarının əsərlərini Azərbaycan dilində oxumaq həqiqətən də maraqlıdır.**




Tanınmış qələm adamı, bədii tərcüməçi, tədqiqatçı-jurnalist Şükür Şənolun yapon ədəbiyyatından tərcümələri də diqqəti çəkir. Bir müddət əvvəl Ş.Şənolun tərcüməsində feodal dövrü yapon ədəbiyyatının klassiklərindən biri olan Ueda Akinarinin novellalarından ibarət "Duman, sis içində Ay" kitabı işıq üzü görüb.

Azərbaycan Yazıçılar Birliyinin "AYB kitab" layihəsinin nəşri olan və "Mütərcim" çap evində işıq üzü görən "Duman, sis içində Ay" kitabının redaktoru yazıçı-dramaturq Elçin Hüseynbəylidir. Kitabın anotasiyasında qeyd edilir ki, U.Akinarinin ədəbi irsi Yaponiyada sevilərək oxunur və çox məşhurdur. "Duman, sis içində Ay" novellalar silsiləsi Akinarinin ən yaxşı əsərləridir. Nağıl, əfsanə süjeti ta qədim zamanlardan bütün xalqların yaradıcılığında geniş yer alıb. Bu keyfiyyətlər, milli yapon məişəti Akinarinin interpretasiyasında özünəməxsus rəng və çalarda, romantizmin realizmlə sintezində, yeni cizgilərlə təqdim olunur. Hətta yapon ədəbiyyatşünasları bunu XX əsr yazıçıları Alber Kamyu və Kobo Abenin roman-pritçaları ilə müqayisə edirlər".

**Nəşrdə U.Akinarinin "Payızgülü bayramında görüş", "Sevən bir qadının həyat hekayəsi", "Geri dönən ruh", "Kibisu məbədi", "Eşq və şərin şərabı" və "Mavi çalma" əsərləri yer alıb.**

***İradə SARIYEVA***

# Kənd yerlərində maraqlı fenomen - nikahdankənar doğulan uşaqların sayı artır

**Onları el arasında müxtəlif adlarla adlandırırlar. "Qanunsuz uşaqlar" deyən də var, lap irəli gedib "bic" damğası yapışdıran da. Əslində isə onlar nikahdankənar dünyaya gələn uşaqlardır. Cəmiyyətin onların necə adlandırmasından asılı olmayaraq, qanun bu uşaqları belə qəbul edir.**

***Fatimə Hacıbəyli:*** *"Nikahdankənar uşaq" ifadəsi Azərbaycanda erkən nikahların artması ilə eyni zamanda aktuallaşıb"*

***Samir Əliyev:*** *"Reallıq odur ki, kənd yerlərində hər 5-ci körpə nikahsız doğulur"*

Son zamanlar nikahdankənar doğulan uşaqlarla bağlı statistik göstəricilərin artması narahatlıq üçün əsas verib. Açıqlanan statistik rəqəmlərə əsasən, son zamanlar nikahdan kənar dünyaya gələn uşaqların sayı artıb. Bu hal, xüsusilə kənd yerlərində daha çox qeydə alınıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdir müavini Aynur Veysəlova media nümayəndələrinə açıqlamasına qeyd edib ki, kənd yerlərində nikahdan kənar dünyaya gələn uşaqların sayı artır: "Kənd yerlərində problemlər çoxdur. Onu da bildirim ki, rayon yerlərində daha çox, azərbaycanlı olmasına baxmayaraq, Rusiya, Gürcüstan və ya başqa ölkə vətəndaşı olan şəxslər nikah bağlamırlar. Çünki həmin ölkədə nikahda olmaması barədə sənəd hansısa səbəblərdən təqdim edilmir. Hətta şəxsiyyət vəsiqəsinin vaxtının keçməsinə rəğmən, onu gedib dəyişdirməyənlər də var. Bu halda nikah rəsmi olaraq qeydə alınmır. Kənd yerlərində bu cür sənədləşmə problemləri var".

**"Vəfa" Sosial Problemlərə Dəstək İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli qeyd etdi ki, problemin kökünü savadsızlıqda görür:** "Nikahdankənar uşaqların sayının artmasının müxtəlif səbəbləri var. Erkən nikahlar nigahdankənar uşaqların sayının artmasına təsir edir. "Nikahdankənar



uşaq" ifadəsi Azərbaycanda erkən nikahların artması ilə eyni zamanda aktuallaşıb. Çünki dini nikahla ərə verilənlərin əksəriyyəti həm də erkən nikahlardır. Ümumiyyətlə, dini və vətəndaş nikahları qadınlar və uşaqlar üçün böyük problemdir. İlk növbədə qadın hüquqi statusunu müəyyən edə bilmir. Üstəlik, əmlak məsələsində də problem yaşanır".

**İqtisadçı ekspert Samir Əliyev qeyd etdi ki, nikahdankənar doğulan uşaqların payı 15-16 faizə yüksəlib:** "Ötən ilin 70-ci, 80-ci, 90-cı illərində rəsmi nikah olmadan doğulan uşaqların payı 3-4 faizdən çox deyildi. Yəni hər doğulan 100 körpənin cəmisi 3-4-ü nikahsız idi. İndi bu rəqəm 15-16 faizə yüksəlib.

Hətta kənd yerlərində vəziyyət daha qəlizdir. Görəsən səbəb nədir? Sovet dövrü insanlarımız qanuna çox əməl edirdilər, yoxsa o vaxt statistika daha çox saxtalaşdırılırdı? Bəlkə sovet vaxtı molla kəbininə az önəm verilirdi? Bəlkə şəhərdə təhsil daha güclüdür və ya ASAN xidməti var? Hər bir halda suallar çoxdur. Reallıq odur ki, kənd yerlərində hər 5-ci körpə nikahsız doğulur".

***Günel CƏLİLOVA***

# Lerikin dağ kəndlərində əhaliyə müddəti ötmüş ərzaq satan kimlərdir?

**Ölkə başçısının apardığı məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamız əsl inkişaf dövrünü yaşayır. Ölkənin iqtisadiyyatı günbəgün möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yüksəlir, mərkəzlərdən əlavə qəsəbə və kəndlərdə də geniş quruculuq işləri aparılır.**

Lakin təəssüf ki, respublikada belə bir inkişaf olan yerdə Lerik rayonunun dağ kəndlərində ağır, məşəqqətli həyat şəraiti insanları doğma ev-eşiyindən perik salır. Qəflət yuxusunda olan rayon rəhbərləri hələlik xalqın xeyrinə əlini ağdan-qaraya vurmur. Rayon mərkəzində rüşvətsiz heç bir məmurun qapısına yaxın düşmək olmur. Bürokratik əngəllərlə üzləşmiş insanlar çarəni rayondan qaçmaqda görür.

Rayonun uzaq dağ kəndində artıq yaşamaq qeyri mümkündür. Əhalinin vəziyyəti ilə maraqlanan yoxdur, hərc-mərclik baş alıb gedir. İmkanı olan imkansıza zülm etməkdən, sanki mənəvi zövq alır. Qalaq-qalaq problemlərin içində batıb qalan kəndlərin sayı bilinmir. Rayonun əksər yaşayış məntəqələrində qaz yoxdur. Yanacaq qıtlığı üzündən hətta ötən qışda evində donanlar da oldu. Rayon mərkəzindən heç bir kəndə avtobus marşrutu işləmir. İşıqlar gündə 15-20 dəfədən çox, xəbərdarlıq edilmədən söndürülür. Bu da evlərdəki məişət cihazlarının yanıb sıradan çıxmasına səbəb olur. Kəndli öz torpağını əkib-biçməyə texnika tapa bilmir... Qara günlər milli-mənəvi dəyərləri, insani keyfiyyətləri, tərbiyəvi məsələləri də unutdurur.

Son illər isə dağ kəndlərində elə məmurların əli ilə daha təhlükəli hala rəvac verilib. Belə ki, kənd yerlərində əhalinin ərzağa olan tələbatını ödəməkdən ötrü münasib bir yer yoxdur. Bu işi indi ayrı-ayrı imkanlı "Kənd tacirləri" görürlər. Burada da əsas məqsəd daha çox pul əldə etməkdir. "Kənd tacirləri" Lənkəran şəhərinə düşüb, az miqdarda xərc çəkməklə bir-iki iri şirkətin insan sağlamlığına təhlükə törədən,




müddəti ötmüş atılmış ərzaqlarını öz dükanlarına gətirirlər. Sonra qorxmadan, çəkinmədən aylarla bazarlıq üçün şəhərə düşə bilməyən kənd sakinlərinə üçqat baha qiymətinə sırıyırlar.

Dinamik inkişafı sayəsində böyük dövlətlər arasına tanınan Azərbaycanımızın gözəl guşəsində qərar tutan Lerik rayonunun Daster, Bürsülüm, Siyov, Conu... ərazilərində əhalinin vəziyyəti olduqca pisdir. Prezidentinə ürəkdən bağlı olan leriklilər inanırlar ki, xalqın xidmətində durmaqla vəzifəyə gəlib sonradan ona arxa çevirən məmurlar, bəzi vicdanı unutmuş işbazlar tezliklə layiqli cəzalarına çatacaq.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 140 (4038) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 AVQUST 2019-cu il

www.baki-xeber.com




## "Bakcell" gənc ixtiraçıların Amerika səfərinə dəstək göstərib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə birgə azərbaycanlı şagirdlərin ABŞ-da keçirilən "Dahilərin olimpiadası"nda iştirakına dəstək göstərib.**

ABŞ-ın Nyu-York ştatında "SUNY Oswego" universitetində keçirilmiş IX "Genius olympiad" ("Dahilərin olimpiadası") müsabiqəsində Azərbaycanı Gəncə şəhərindən olan IX sinif şagirdləri Rəsul Əliyev və Hüseyn Əliyev təmsil ediblər. Onlar tədbirdə "LEGO technic" vasitəsilə yaratdıqları "RoboAqrar" robotunu nümayiş etdiriblər. Fermerlər üçün nəzərdə tutulan bu robot kənd təsərrüfatında geniş istifadə potensialına malikdir. Gənc ixtiraçılarımız olimpiadanın "Biznes" kateqoriyasında fərqlənmə diplomuna layiq görülüblər. Qeyd edək ki, müsabiqəyə 79 ölkədən 2800 nəfərdən çox şagird qoşulub.

"Bakcell" şirkəti gənclərin təhsili və inkişafına, həmçinin, Azərbaycanda startap mühitinin yaxşılaşmasına mütəmadi olaraq dəstək göstərir. Şirkət Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Həmçinin, 2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell" şirkətinin "AppLab" proqramından dəstək alırlar. Bu mühüm layihələr ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə, Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında böyük rol oynayır.

### Elan

Şəki rayonu, İnçə kənd sakini Məmmədov Məmməd Yaqub oğlunun və ailə üzvlərinin adına verilmiş CN:197 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kərimova Sevda Telman qızının adına, Abşeron rayonu, Xırdalan şəhəri, M.Rəsulzadə küçəsi, ev 3, mənzil 232 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış), doğum haqqında şəhadətnamə, nikah haqqında şəhadətnamə və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Məmmədova Kəmalə Qardaşxan qızına məxsus dövlət aktı itdiyi üçün etibarsız sayılır (Ünvan: Abşeron rayonu, Mehdiabad qəsəbəsi, 15 sot torpaq sahəsi).

Kəngərli Emilya Məmməd qızının adına, Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi 85, mənzil 69 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Sadıq Aydı oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, N.Nərimanov prospekti, ev 55, mənzil 24 ünvanının və Binəqədi rayonu, 6-cı mikrorayon, S.Məmmədova küçəsi, ev 201, mənzil 79 ünvanının texpasportları, qeydiyyat vəsiqələri və digər sənədləri itdiyi üçün etibarsız sayılır.




## "Azercell"in Rəqəmsal Dünyası Azərbaycanın şimal bölgəsində

*Layihə Quba, Xaçmaz və Qusar şəhərlərində 20 minə yaxın insanı bir araya gətirib*

**Hər zaman maraqlı təşəbbüsləri və layihələri ilə fərqlənən Azərbaycanın ilk 4G xidməti təminatçısı "Azercell Telekom" MMC-nin respublikamızın şimal bölgəsinə təşkil olunan səfəri uğurla baş tutub.**

"Rəqəmsal Dünya bölgələrdə" adlı layihəsi çərçivəsində Quba, Xaçmaz və Qusarda 20 minə yaxın insanı bir araya toplayan ölkənin telekommunikasiya sahəsinin lideri "Azercell" həm əyləncəli, maarifləndirici, həm də sosial tədbirləri bir səfərdə cəmləyib. Şirkət tərəfindən bölgə sakinlərinə yenilənmiş rəqəmsal məhsullar, mobil cihazların texniki imkanları vasitəsilə xidmətlərin əlçatanlığı nümayiş olunub. Tədbir iştirakçıları virtual reallıq oyunlarında öz güclərini sınayıb, intellektual və əyləncəli oyunlara, müsabiqələrə qatılıb, hədiyyələr qazanıb.

Eyni zamanda, bölgələrə təşkil olunan səfərlərə "Azercell"in "Mobil Diş" və "Mobil Göz" klinikaları da qoşulub. 3 avqust tarixində Quba şəhər valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbində "Azercell"in mobil klinikaları 30-a yaxın uşağı müayinə edib. "Azercell" internat məktəbinin şagirdlərinə məktəb ləvazimatları hədiyyə edib. Daha sonra klinikalar Qubanın mərkəzində azteminatlı ailələri və ahılları da müayinədən keçirib. Məlumat üçün bildirək ki, yarandığı andan "Azercell"in "Mobil Göz Klinikası"nın xidmətlərindən 6500-dən çox, "Mobil Diş Klinikası"nın xidmətlərindən isə 4000-dən çox şəxs yararlanıb.

Fəaliyyətinin rəqəmsal dövrünə qədəm qoyan "Azercell"in ölkənin texnologiyalar aləminə inteqrasiyasını sürətləndirmək üçün ölkəboyu 4G şəbəkəsinin gücləndirilməsi və genişləndirilməsinə son yarım ildə yatırdığı sərmayənin məbləği 63 milyon manata çatıb. Ümumilikdə, Bakı və Abşeron da daxil olmaqla, ölkənin 57 bölgəsi 4G şəbəkəsinin əhatə dairəsindədir. Təkcə Quba, Qusar və Xaçmaz bölgəsində 70-ə yaxın LTE stansiyası əhalini yüksək sürətli internetlə təmin etməkdədir. Son yarımildə şirkət əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail olub. Həmçinin, günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alınıb. Məlumat üçün bildirək ki, müasir dövrdə istifadəçilərin artan tələblərini qarşılamaq və yeni bağlantı erasına ölkəni hazır etmək şirkətin prioritet sahələrindəndir.

Avqust ayında "Azercell"in Rəqəmsal Dünyasını öz bölgənizdə gözləyin!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Baş verənləri anlamaq üçün harmoniyaya ehtiyacınız var. Estetik, qastronomik, maliyyə tələblərinizin ödənməsinə can atacaqsınız. Yeni mərhələnin ilkin təzahürlərini ayırd etməyi bacarın.



**Buğa** - Rəqibləri zəif saymayın, problemlərinizin, gerçəkdən də, mürəkkəb olduğunu etiraf edin. Belə olarsa, çox problemlərin öhdəsindən gələ bilərsiniz. Nikbinlik və qüvvələrinizə əminlik imkanlarınızı artıracaq.



**Əkizlər** - Yaxın ətrafınızdakı insanlardan daha çox məlumat əldə edin. Situasiyanın təfərrüatlarına bələd olun. Tapşırıq və ya sifariş alsanız, detalları dəqiqləşdirmədən işə başlamayın.



**Xərçəng** - Olayların bəzilərini əvvəlcədən planlaşdırmaq mümkün deyil. Gözləntilər və ehtimallarda ifrat dərəcədə nikbin olmayın. Potensialınızı, imkanlarınızı dürüst qiymətləndirin.



**Şir** - Günün ilk yarısında texniki nasazlıqlar, iş yerində qəfil problemlərin yaranması istisna deyil. Bunun səbəbi sözləşdiyiniz insanla məkan və zaman anlaşmasının şərtlərinə əməl olunmamasıdır.



**Qız** - Maliyyə və maddi-texniki problemlərin həllində aktiv davranın. Əsəbi olmayın. Bacardığınızdan artıq işləri görməyə başlasanız, ifrat yorğunluğa düçar olacaqsınız. Vaxtınızı mənasız işlərə sərf etməyin.



**Tərəzi** - Səfərdə, yazışmada və ya söhbətdə anlaşılmazlıq yarana bilər. Maddi məsələləri vaxtında həll etmək istəyirsinizsə, yalnız öz qüvvənizə və potensialınıza bel bağlayın. Kiminsə gecikməsi və ya səhlənkarlığı planları poza bilər.



**Əqrəb** - Yaranmış situasiya sizdən çeviklik, sürət, mütəhərrik davranış tələb edir. İşdə rəhbərliyin artan tələbkarlığı və ya əmək şərtlərinin dəyişməsi ilə bağlı müəyyən diskomfort istisna deyil.



**Oxatan** - Günün ilk yarısında yaranacaq mübahisədə təmkinli davranın. Başqalarının diskussiyasında müşahidəçi olsanız, eşitdikləriniz və ya gördükləriniz barədə yalnız obyektiv rəyinizi bildirin.



**Oğlaq** - Yaşanan olayları diqqətlə müşahidə edin. Ayıq olun. Rəqiblərin sizi geridə qoymasına imkan verməyin. İmkanlarınızı olduğundan artıq dəyərləndirməyin. Özünüzü az qala bütün situasiyalarda haqlı saymayın.



**Dolça** - Mənasız illüziyalardan, əsassız fantaziyalardan qurtulun. Cari işləri yerinə yetirməkdən usanmayın. Yeknəsəqlikdən şikayətlənərək süstlüyə qapılmayın. Yaradıcılıqla da məşğul olmaq mümkündür.



**Balıqlar** - Axınla hərəkət edin, hadisələrin məcrasında kəskin dəyişikliklərə can atmayın. Yaşam prosesləri üzərində nəzarəti tamamən itirməyin. Təmkinli və səbrli olun, emosiyalara uymayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Günəş panelləri ilə təchiz edilmiş parça...

**Alman tədqiqatçıları yumşaq və elastik günəş panellərindən ibarət parça hazırlayıblar. "ICTnews" Elektron Xəbər Xidməti "hightech.plus" saytına istinadən yazır ki, "Günəş parçası" Fraunhofer İnstitutunun alimləri və onların "PhotoTex" layihəsindəki həmkarları tərəfindən işlənib hazırlanıb.**

İxtiranın əsas elementi elastik günəş panellərinin sənaye istehsalı prosesidir. Əsas problem yeni materialın aşağı səmərəliliyi ilə bağlıdır. İndi belə parçanın faydalı iş əmsalı (FİƏ) 0,1%-0,3% aralığındadır. Alimlər gələcəkdə FİƏ-ni 5%-dək yüksəltməyə hazırlaşır. Silisium fotoelementlərinin məhsuldarlığının yüksək olmasına baxmayaraq, alimlər ümid edirlər ki, onların həllinə, həmçinin tələbat olacaq. 5 il ərzində sözügedən parçanın satışına başlamaq planlaşdırılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.